# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

31 oktyabr 2025-ci il, cümə
№ 198 (7025)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# 31 oktyabr 2003 - yeni yüzilliyin başlanğıcı





Bax səh. 2-3

## Andiçmə nitqindən reallığa gedən yol: 22 ilin dövlətçilik salnaməsi



## Etibarlı tərəfdaşlığın yeni mərhələsi

Bax səh. 4

## Dayanıqlı inkişaf statistikası sahəsində əldə olunmuş nailiyyətlər

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 64/267 nömrəli qətnaməsinə əsasən 2010-cu ildən başlayaraq hər 5 ildən bir oktyabr ayının 20-si Ümumdünya Statistika Günü kimi qeyd olunur. BMT-nin Statistika Komissiyasının 56-cı sessiyasında cari ilin 20 oktyabr tarixində sayca 4-cü olan bu əlamətdar günün "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır. Statistiklər gününün dünya səviyyəsində qeyd edilməsində əsas məqsəd müasir qloballaşma dövründə statistikanın rolunu və əhəmiyyətini statistik məlumat istifadəçiləri də daxil olmaqla, vətəndaş cəmiyyətlərinə çatdırmaqdan ibarətdir.

Azərbaycanın rəsmi statistikası 100 ildən artıq tarixə malikdir və bu illər ərzində böyük inkişaf yolu qət etmişdir. Bu inkişafda Ümummilli Lider Heydər Əliyevin və onun siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin misilsiz xidmətləri olmuşdur. Ümummilli Lider Heydər Əliyevin və...

Bax səh. 5

## YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib

Bax səh. 4

## Sabitliyin və inkişafın açarı...

Bax səh. 5

## Gözlənilən görüş baş tutdu...

Çin ilə ABŞ arasında aylardır davam edən "susqun mesajlaşma" deyəsən başa çatıb. Belə ki, Cənubi Koreyada keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq sammiti çərçivəsində ABŞ prezidenti Donald Tramp və Çin Xalq Respublikasının sədri Si Cinpin arasında görüş baş tutub. Görüşdən öncə Donald Tramp Truth Social-da bu barədə yazaraq görüşü "Bu, hər ikimiz üçün əla görüş olacaq!" - deyə xarakterizə edib. Xatırladaq ki, dövlət başçıları Cənubi Koreyadakı Gimhae Hərbi Hava Bazasında qapalı qapılar arxasında görüşüblər. Danışıqlardan əvvəl açıqlamlar verən dövlət başçıları görüşdən sonra mətbuata açıqlama verməyiblər. Tramp Asiya turnesini başa vuraraq ölkəsinə qayıdıb.

Xarici medianın yazdığına görə, görüşdə tərəflər arasında bir sıra iqtisadi razılaşmalar əldə olunub. Si Cinpini görüşdə xarici işlər naziri Vanq Yi, aparat rəhbəri Cai Qi, Milli İqtisadi Planlaşdırma Komissiyasının sədri Çjen Şanje və ticarət naziri Vanq Ventao müşayiət edib.

ABŞ tərəfini isə dövlət katibi Marko Rubio, maliyyə naziri Skott Bessent, ABŞ-ın Çindəki səfiri Devid Perdu və Ağ Evin aparat rəhbəri...

Bax səh. 6

## Barını çürüdən ağac

Bax səh. 7



## ABŞ-da uçot faizləri endirildi

Bax səh. 7

## Ermənistanda siyasi vəziyyət gərginləşir: hakimiyyət erkən seçkilərə gedəcəkmi?

Bax səh. 6

# 31 oktyabr 2003 - yeni yüzilliyin başlanğıcı

**2003-cü ildə verilmiş vədlər Azərbaycanın siyasi, iqtisadi və hərbi yüksəlişinin əsasını qoydu**

2003-cü il Azərbaycanın müasir tarixinə yeni inkişaf dövrünün başlanğıcı kimi yazıldı. Oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Əliyev 76,84 faiz səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçildi. Həmin dövr nəinki Azərbaycanda və ya Cənubi Qafqazda, bütövlükdə dünyada yeni transformasiyaların baş verdiyi, yeni inkişaf prioritetlərinin müəyyənləşdiyi, yeni reallıqların və şərtlərin meydana çıxdığı bir dövr idi. Yeni əsrin qlobal münasibətlər sistemi yenidən formalaşırdı - belə bir kritik zamanda Azərbaycan beynəlxalq aləmə özünün yeni inkişaf məqsədlərini, parioritetlərini, hədəflərini və mövqeyini bəlli etdi. Prezident İlham Əliyevin oktyabrın 31-də andiçmə mərasimindəki nitqi Azərbaycanın gələcəyinin inkişaf konsepsiyası, strateji yol xəritəsi idi.

## Andiçmə nitqindən reallığa gedən yol: 22 ilin dövlətçilik salnaməsi

### Prezident İlham Əliyevin andiçmə nitqindən ötən 22 il: Azərbaycanın 100 illik sıçrayışını təmin edən liderlik

22 il sonra, 2003-cü ilin 31 oktyabrında İlham Əliyev Azərbaycanın Prezidenti kimi and içərkən səsləndirdiyi hər bir fikir, irəli sürdüyü hər bir tezis reallıqda öz təsdiqini tapıb. Son 22 ildə Azərbaycan tək regionda deyil, qlobal miqyasda da özünün yeni və nümunəvi inkişaf modelini təqdim edib - iqtisadi, siyasi, sosial və hərbi sahələrdə əldə olunan nailiyyətlər, dövlətin artan beynəlxalq nüfuzu, müstəqil siyasət kursu və milli maraqlara əsaslanan konseptual inkişaf strategiyası Azərbaycanı bu gün Cənubi Qafqazın lider dövləti, Avrasiya məkanının əsas tranzit və əməkdaşlıq mərkəzinə çevirib.

Azərbaycan son iki onillikdə qitələri birləşdirən körpü, sivilizasiyalararası dialoqun təşəbbüskarı və dayanıqlı inkişafın fəal tərəfdarı kimi tanınıb. Bu gün dünyanın diqqəti Cənubi Qafqazdadırsa, bu, məhz Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Qarabağın azadlığı və ölkənin suverenliyinin tam bərpası isə bu siyasi kursun ən ali zirvəsidir. Bütün bu uğurların əsasında isə 2003-cü ilin andiçmə mərasimində səslənən sözlər, verilən vədlər, konseptual proqramlar dayanırdı. Həmin nitq Azərbaycanın gələcək 20-30 illik inkişaf xəritəsini müəyyənləşdirən proqram sənədi idi. Zaman göstərdi ki, həmin konsepsiya ölkəni regionun ən sabit, ən güclü və ən nüfuzlu dövlətinə çevirdi.



## Heydər Əliyev siyasi kursunun davamı - inkişafın və birliyin təməli

Prezident İlham Əliyev andiçmə nitqində bəyan etmişdi ki. "Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır".

Bu sözlər son 22 ildə dövlət idarəçiliyinin əsas ideoloji xəttinə çevrildi. Ulu öndərin müəyyən etdiyi müstəqil dövlətçilik konsepsiyası yeni şəraitdə daha çevik, dinamik və nəticəyönlü şəkildə həyata keçirildi. Heydər Əliyev siyasi irsinin strateji xətti Prezident İlham Əliyev dövründə modernləşdirildi və qlobal çağırışlara uyğunlaşdırıldı. Bu siyasət nəticəsində ölkədə sabitlik qorundu, iqtisadi islahatlar dərinləşdi, sosial rifah artırıldı. Azərbaycanın enerji müstəqilliyi, nəqliyyat-logistika imkanları, ordu quruculuğu və beynəlxalq əlaqələr sistemi gücləndirildi.

Ən əsası isə bu dövrdə xalq-hakimiyyət birliyi daha da möhkəmləndi. Prezident İlham Əliyev Özünün bütün strateji gedişlərinin əsas dayağı kimi məhz xalq etimadına güvəndi, arxalandı. Hər bir siyasi qərarın, sosial proqramın, beynəlxalq təşəbbüsün arxasında milli maraq və vətəndaş rifahı dayanırdı. Bunun nəticəsində Azərbaycanda milli ideoloji birlik formalaşdı, cəmiyyətin bütün təbəqələri inkişafın vahid hədəfi ətrafında birləşdi.

Bu, müasir dövlətçilik tariximizdə mühüm mərhələ idi - çünki Heydər Əliyev məktəbinin davamı olaraq formalaşan İlham Əliyev dövrü artıq Azərbaycan dövlətçiliyinin keyfiyyətcə yeni mərhələsini ifadə edir.

## Azərbaycan beynəlxalq münasibətlər sistemində - nüfuzun və etimadın 22 ili...

Prezident İlham Əliyev 2003-cü ildə bildirmişdi ki, beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır: "Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır".

Səslənən bu ideya, tezis 22 illik bir yol gələrək artıq tarixi fakta çevrilib. Həqiqətən də, Azərbaycan təkcə regional deyil, qlobal qərarların qəbulunda iştirak edən ölkəyə çevrilib. Son 22 ildə Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi və orada sədr kimi çıxış etdi. Qoşulmama Hərəkatında uğurlu sədrlik dövrü Azərbaycanın beynəlxalq nüfuzunu yeni səviyyəyə qaldırdı. Azərbaycanın sədrlik fəaliyyəti nəticəsində bu hərəkat 120 üzv dövlət üçün həmrəyliyin və bərabərhüquqlu əməkdaşlığın platformasına çevrildi.

Türk dünyasının inteqrasiyasında da Prezident İlham Əliyevin rolu həlledici oldu. 2009-cu ildə Naxçıvanda Türk Dövlətləri Əməkdaşlıq Şurasının yaradılması təşəbbüsü məhz Prezident İlham Əliyevə məxsusdur. Bu gün Türk Dövlətləri Təşkilatı qlobal güc mərkəzi kimi formalaşırsa, bu, Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin nəticəsidir.

Azərbaycan COP29-a ev sahibliyi etməklə də beynəlxalq etimadın ən yüksək göstəricilərindən birini qazandı. Bu, həm də Azərbaycanın "yaşıl enerji", ekoloji diplomatiya və dayanıqlı inkişaf istiqamətlərində lider mövqeyə yüksəlməsinin təsdiqidir.

22 il ərzində Azərbaycan BMT, Avropa Şurası, İƏT, MDB, ATƏT, GUAM, ECO kimi qurumlarda fəal və təsirli üzv kimi çıxış edib. Azərbaycanın beynəlxalq imici sülh, əməkdaşlıq və tərəfdaşlıq prinsipləri üzərində qurulub.

Bu gün Cənubi Qafqazın siyasi və iqtisadi xəritəsi Azərbaycanın iştirakı olmadan formalaşa bilmir. Azərbaycan artıq qlobal diplomatiyada etibarlı tərəfdaş, sülhün və ədalətin səsi kimi qəbul edilir.

## Qonşularla uğurlu əməkdaşlıq - regional sabitliyin əsas dayağı

Azərbaycanın siyasi prioritetlərindən biri hər zaman yaxın və səmimi qonşuluq prinsipinə söykənib. Prezident 2003-cü il nitqində qətiyyətli bildirmişdi ki, qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu istiqamətdə ötən 22 ildə Azərbaycanın nailiyyətləri regional sabitliyin və iqtisadi inteqrasiyanın təməlini qoydu.

Bu gün Azərbaycan bir çox ikitərəfli, üçtərəfli və hətta dördtərəfli əməkdaşlıq formatlarının təşəbbüskarı və ev sahibidir. Bakı platforması artıq regionda etimad və dialoq məkanı kimi tanınır. Azərbaycan-Türkiyə münasibətləri isə strateji müttəfiqlik səviyyəsinə yüksəldi. 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi bu birliyin tarixi sənədi və sübutu, təsdiqidir. Azərbaycan həm İran, həm Gürcüstan, həm də Mərkəzi Asiya ölkələri ilə qarşılıqlı hörmət və maraqlara əsaslanan əməkdaşlıq xəttini qoruyur.

Təşəbbüskarı olduğu Orta Dəhliz və Zəngəzur dəhlizi (TRİPP) kimi layihələr Azərbaycanın regional liderliyinin mühüm təzahürlərindəndir. Bu dəhlizlər təkcə iqtisadi layihə deyil, həm də Cənubi Qafqazda sabitliyin və qarşılıqlı asılılığın əsas mexanizmləridir. Ermənistanla münasibətlərdə isə tarixi dönüş baş verib. Azərbaycan artıq yük daşımalarına qoyulan qadağanı aradan qaldırmaqla yeni mərhələyə keçid üçün jest nümayiş etdirib. Prezident İlham Əliyevin təşəbbüsü olan sülh prosesi regiona yeni nəfəs gətirib. Bu, həm iqtisadi, həm də humanitar baxımdan Cənubi Qafqazda əməkdaşlıq erası üçün zəmin yaradır.

## İqtisadi inkişaf - daha güclü Azərbaycan naminə...

Prezident İlham Əliyev andiçmə mərasimində bildirmişdi ki, Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir, çoxsaxəli iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin edib. Qarşıda ölkəmizin gələcək inkişafı ilə bağlı yeni hədəflər durur və iradəli iqtisadi islahatlar kursu ilə buna çatmaq mümkündür.

Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu güclü və fundamental baza üzərində qurulmuş möhtəşəm iqtisadi strategiyanı inkişaf etdirən Prezident İlham Əliyevin islahatlar proqramında başlıca yer tutan ən mühüm istiqamətlərdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi idi ki, son 22 ildə neftdən kənar sahələrin sıçrayışlı inkişafı təmin olunub.

Ötən dövr ərzində Azərbaycanda ümumi daxili məhsulun həcmi (ÜDM) real ifadədə 3,7 dəfə artaraq 7,1 milyard manatdan 126,3 milyard manata yüksəlib.

ÜDM-in nominal həcmi isə bu dövrdə 22 dəfə artıb. Adambaşına düşən ümumi daxili məhsulun dəyəri 3,1 dəfə artaraq 12 min 382 manat təşkil edib. Ölkə əhalisinin gəlirləri 13,7 dəfə artıb.

Qeyd edilən dövrdə neft-qaz sektoru üzrə ÜDM 2,3 milyard manatdan 47 milyard manata, qeyri-neft-qaz sektoru üzrə ÜDM isə 3,6 dəfə artımla 4,9 milyard manatdan 78,8 milyard manata yüksəlib. 2003-2024-cü illərdə qeyri-dövlət sektorunun ÜDM-də payı 87 faizə çatıb.

İqtisadi inkişafda mühüm rol oynayan sənaye sektorunun payı hər il artımla müşahidə edilib, sənaye məhsullarının illik dəyəri bu illər ərzində 22 dəfədən çox artaraq 4 milyard manatdan 88 milyard manata çatıb. Qeyri-neft-qaz sənayesində istehsalın artması da ölkəmizin ixracının həcminə müsbət təsir edib. Belə ki, son 22 ildə ölkədə qeyri-neft-qaz sənayesində istehsal 1,7 milyard manatdan 18 milyard manata yüksəlib. Paralel olaraq qeyri-neft ixracı 12 dəfə artaraq 0,3 milyard dollardan 3,2 milyard dollara yüksəlib.

Bu müddətdə yaradılmış 9 sənaye parkı və 4 sənaye məhəlləsinin fəaliyyət nəticəsində sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb, 11 minə yaxın daimi iş yeri yaradılıb.

Qabaqcıl ideyaların tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 82 faizə yüksəlib.

## Sabahın təminatı - Neft Fondunun aktivləri 85 dəfə artıb

Ölkənin ticarət əlaqələri isə daha da genişlənib və inkişaf edib. Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrin sayı 55-dən 2024-ci ildə 188-ə çatıb. Ölkəmizin xarici ticarət dövriyyəsi isə 3,8 milyard dollarından 52 milyard dollara yüksəlib. İxracın həcmi 2.2 milyard dollarından 38.1 milyard dolları çatıb. Ümumilikdə, 2024-ci ildə ölkəmizin xarici ticarət dövriyyəsinin həcmi 2003-cü illə müqayisədə 14 dəfə, o cümlədən idxal 9 dəfə, ixrac isə 18 dəfə yüksəlib. Ötən dövr üzrə xarici ticarətin profisiti 0,5 milyard dollarından 24 milyard dollara çatıb. Bu isə ölkəyə böyük həcmdə valyuta axını və maliyyə sabitliyi bazasını formalaşdırıb.

Azərbaycanın maliyyə yığım ehtiyatları bu dövrdə əhəmiyyətli dərəcədə böyüyüb, əsas suveren yığım sütunu olan Dövlət Neft Fondunun (DNF) aktivləri 2003-cü ildə 815 milyon dollar təşkil etdiyi halda ötən 22 ildə bu rəqəm 85 dəfə artaraq 70 milyard dollara yüksəlib. Mərkəzi Bankla birlikdə, hazırda Azərbaycanın strateji valyuta rezervlərinin həcmi 80 milyard dollardan çoxdur. Ölkəmizin maliyyə imkanları yaxşılaşdıqca xarici borclanmadan da asılılıq azalıb. Nəticədə 2003-cü ildə xarici borcun ÜDM-də payı 21,6 faiz olduğu halda, 2024-cü ildə bu rəqəm 7 faiz təşkil edib.

## Sabitliyin və inkişafın nümunəsi - dövlət büdcəsinin gəlir və xərcləri 30 dəfə yüksəlib

Son 22 ildə Azərbaycanda dövlət büdcəsinin gəlirləri 1,2 milyard manatdan 34,9 milyard manata, xərcləri isə 1,2 milyard manatdan 36,7 milyard manata yüksəlib.

Nəticədə büdcə gəlirləri və xərcləri 30 dəfə artıb. Büdcədə təkcə hərbi xərclər bu dövrdə 16 dəfədən çox artıb.

Azərbaycanda aparılan sosial siyasət nəticəsində xalqımızın rifahı yaxşılaşıb. 2003-cü ildə orta aylıq əməkhaqqı 77,4 manat idisə, 2024-cü ildə bu rəqəm 1000 manatı ötüb. Qeyd edilən dövrdə minimum əməkhaqqı 9 manatdan 2025-ci yanvarın 1-dən 400 manata yüksəlib. Orta aylıq pensiya 25 manatdan 480 manata, minimum pensiya isə 20 manatdan 320 manata çatıb. Yürüdülən uğurlu sosial siyasət nəticəsində yoxsulluq səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2024-ci ildə 5,5 faizə qədər azaldılıb. Bu illər ərzində 2,2 milyondan artıq yeni iş yerinin yaradılması sosial siyasətin ən böyük uğurlarındandır.

Dövlət başçısının strateji inkişaf kursunun uğuru nəticəsində Azərbaycan yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatında 65 faiz paya malik olmaqla güclü iqtisadiyyatın sahibi kimi çıxış edir.

davamı 3-cü səhifədə

# 31 oktyabr 2003 - yeni yüzilliyin başlanğıcı

## Andiçmə nitqindən reallığa gedən yol: 22 ilin dövlətçilik salnaməsi

əvvəli 2-ci səhifədə

### Azərbaycan dünyaya açıqdır - İqtisadiyyata 344 milyard dollar sərmayə qoyulub

Azərbaycan bu dövrdə xarici investorlarla əməkdaşlığa xüsusi önəm vermiş, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Qlobal iqtisadiyyata inteqrasiya şəraitində aparıcı beynəlxalq şirkətlərə və xarici maliyyə qurumlarına, investorlara ölkəmizdə azad fəaliyyət üçün geniş və əlverişli imkanlar yaradılıb. Nəticədə 2003-2024-cü illər ərzində iqtisadiyyatımıza 344,4 milyard dollar həcmində sərmayə qoyulub ki, onun əhəmiyyətli hissəsi və ya 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Həmin cəmi sərmayələrin 50 faizindən çoxu xarici sərmayələrin payına düşür. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə olunmuş möhkəm etimad sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya edirlər ki, bu da Azərbaycanın gələcək tərrəqisi üçün uzunmüddətli kapital bazası deməkdir.



Onun təşəbbüsü ilə ərsəyə gələn enerji, nəqliyyat, logistika layihələri qlobal miqyasda nümunəvi əməkdaşlıq modeli kimi tarixə düşərək son 22 ildə Asiyadan Avropaya qədər uzanan iri transmilli layihələrin və logistika şəbəkələrinin inkişafını təmin edib. Azərbaycan BTC, BTQ, TANAP, TAP, Şimal-Cənub, Şərq-Qərb, Orta Dəhliz kimi nəhəng enerji və nəqliyyat arteriyalarında lider dövlət kimi yer almaqla regionun iqtisadi xəritəsini zənginləşdirib. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən

### Yeni qlobal enerji xəritəsi - Azərbaycan enerji təminatçısı rolunda...

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir və Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyulub və yeni iqtisadi rifah arxitekturası formalaşıb. Hazırda Azərbaycanın mükəmməl iqtisadi diplomatiyası sayəsində Cənubi Qafqaz bölgəsində yeni əməkdaşlıq landşaftı formalaşır, xarici investorların azad ərazilərdə başlatdığı qeyri-neft proqramları, "yaşıl enerji" layihələri, qeyri-neft sahələrinin, turizm potensialının daha da güclənməsinə istiqamətlənmiş təşəbbüslər regionun iqtisadi rifah mənzərəsini dəyişir, böyük iqtisadi əməkdaşlıq koalisiyası qurulur, habelə Orta Dəhlizin ən mühüm xətti olan Zəngəzurun açılmasına yönəlik addımlar uzunömürlü rifaha möhkəm zəminlər yaradır. Beləliklə, İlham Əliyevin 22 illik prezidentlik dövrünü iqtisadi-sosial sahədə milli yüksəliş, rifah və tərəqqi dövrü kimi səciyyələndirmək olar.

### Vətəndaşın rifahı amili - Azərbaycan siyasətinin əsas hədəfi...

Prezident İlham Əliyevin siyasi konsepsiyasının mərkəzində hər zaman Azərbaycan vətəndaşı, onun maraqları, sosial rifahı və təhlükəsizliyi dayanıb. Azəbaycan Prezidentinin "Mən hər bir azərbaycanlının prezidenti olacağam", şüarı, "neft kapitalını insan kapitalına çevirək" devizi Azərbaycanın inkişaf tendensiyasının aparıcı avmili kimi ön plana çıxdı. İlham Əliyev 2003-cü ilin 31 oktyabrında andiçmə mərasimində söylədiyi fikirlər dövlət idarəçiliyinin əsas fəlsəfəsini ortaya qoymuşdu. Azərabycanda dövlətin mənbəyi xalqdır - Prezident İlham Əliyev özünün siyasi prinsiplərini məhz xalqın rifahı, sabitlik və milli həmrəyliyin qorunması prioritetləri ilə tənzimləmişdi. Bu, sadəcə siyasi bəyanat deyil, son 22 ilin bütün mərhələlərində öz təsdiqini tapan rəhbərlik missiyası idi.

Bəli, Prezident İlham Əliyevin fəaliyyətinin mərkəzində hər zaman insan amili dayanıb. Onun rəhbərliyi ilə ölkədə sosial rifahın yüksəldilməsi, regionların bərabər inkişafı, işsizliyin azaldılması, aztəminatlı təbəqələrin sosial müdafiəsi istiqamətində ardıcıl proqramlar həyata keçirilib. Şəhid ailələrinə, qazilərə, məcburi köçkünlərə və sosial cəhətdən həssas qruplara göstərilən diqqət və qayğı dövlət siyasətinin başlıca xəttinə çevrilib.

Bu illər ərzində Azərbaycanda xalq-dövlət birliyi yeni səviyyəyə yüksəlib. İlham Əliyev hər bir azərbaycanlının Prezidenti kimi ölkənin hər bölgəsinə bərabər yanaşma, regionların iqtisadi və sosial dirçəlişini təmin edən dövlət proqramlarını icra edib. Bakıdan Naxçıvana, Qarabağdan Şimal bölgəsinə qədər hər bir ərazidə həyata keçirilən infrastruktur layihələri, yeni yollar, məktəblər, xəstəxanalar, sosial evlər məhz bu siyasətin konkret təzahürüdür.

Prezidentin sosial ədalətə və bərabərliyə əsaslanan yanaşması sayəsində bu gün Azərbaycanda vətəndaşların böyük əksəriyyəti dövlətin qayğısını real həyatda hiss edir. Onun siyasi kursu həm də xalqla dövlət arasında qarşılıqlı etimad modelini formalaşdırıb. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda sabitlik, təhlükəsizlik və sosial rifah bir-birini tamamlayan dövlət idarəetməsi systemi elementlərinə çevrilib.

### Qarabağın azadlığı - 22 illik siyasi yolun zirvəsi

Həmin dövr üçün 10 ildən bir az artıq tarixə malik Qarabağ münaqişəsi Azərbaycanın əsas problemi idi - ölkənin bütün siyasi, iqtisadi və digər konsepsiyalarının təməlində, əsasında məhz qarabağın azadlığı uğrunda iş, fəaliyyət dayanırdı. Sülh danışıqlarının davam etdirilməsi, paralel olaraq ölkənin inkişafı paralel aparılırdı. Prezident İlham Əliyev isə andiçmə nitqində problemin yeganə həll yolunu göstərdi: "Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

O zaman bu fikirlər yeni prezidentin strateji hədəfi idi. 22 illik siyasi mübarizə, ardıcıl diplomatik fəaliyyət, iqtisadi və hərbi gücün sistemli şəkildə artırılması bu hədəfi reallığa çevirdi. Prezident İlham Əliyevin əsas strategiyası ölkəni hərtərəfli gücləndirmək, milli maraqları təmin etmək və beynəlxalq hüquqa əsaslanan ədalətli həllə nail olmaq idi. O, illərlə sülh danışıqlarında iştirak edərək, Azərbaycanın mövqeyini beynəlxalq səviyyədə qəbul etdirə bildi.

Amma Ermənistan rəhbərliyinin təxribatçı siyasəti, 2019-cu ildə Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı artıq yeni mərhələ açdı. Elə həmin il İlham Əliyev cavab olaraq tarixə düşən sözləri səsləndirdi: "Qarabağ Azərbaycandır və nida işarəsi!" Bu, 20 illik gedilən siyasi yolun ən qəti və prinsipial mesajına çevrildi. 2020-ci ilin Vətən müharibəsində Azərbaycan ordusu 44 gün ərzində torpaqlarını azad etdi. Prezident Şuşanın azad edilməsi münasibətilə xalqa müraciətində bildirdi: "Ata vəsiyyətini yerinə yetirdim."

Bu, həm siyasi, həm mənəvi, həm də tarixi borcun yerinə yetirilməsi idi. 2023-cü ilin antiterror tədbirləri ilə isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu. Artıq separatizm anlayışı bu torpaqlarda mövcud deyil. Bu gün bütün dünya Azərbaycanın azad Qarabağda apardığı quruculuq işlərinə həsədlə baxır - bu fəaliyyət xalqının inamına, etimadına söykənərək ən çətin problemlərin həllinə nail olunmasının bariz sübutudur.

Prezidentin 2003-cü il nitqində səsləndirdiyi "ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir nəticə vermir" fikri də zamanla öz təsdiqini tapdı. Bu gün Minsk qrupu tarixdən silinib, sülh prosesi birbaşa Bakı-İrəvan dialoqu üzərində qurulub. Azərbaycanın 22 illik siyasi yolunun ən böyük nəticəsi isə tam müstəqil, bütöv və suveren dövlət statusuna nail olmaqdır.

### Tarix üçün nümunə - Azərbaycan 100 illik inkişaf yolunu 22 ilə qət etdi...

Beləliklə, 2003-cü ildən bu günə qədər keçilən yol əslində bir əsrlik inkişafın nümunəvi modelidir. Bu 22 il ərzində Azərbaycan tarixində görünməmiş sürətlə dəyişib, müasir, güclü və nüfuzlu dövlətə çevrilib. Bu inkişafın mərkəzində isə Prezident İlham Əliyevin uzaqgörənliyi, ardıcıllığı və fenomenal siyasi liderliyi dayanır. Dövlət başçımız qlobal miqyasda milli maraqların müdafiəsini təmin edən, xalqın rifahını dövlət siyasətinin mərkəzinə çevirən lider kimi tanınır. Məhz bu prinsipiallığın nətəsində Azərbaycan həm iqtisadi gücə, həm də mənəvi dayanıqlığa malikdir. 22 illik inkişafın nəticəsi ondan ibarətdir ki, Azərbaycan artıq təkcə regionun deyil, dünyanın siyasi xəritəsində öz sözünü deyən, səsi eşidilən və nüfuzu qəbul edilən dövlətdir. Bu, Prezident İlham Əliyevin dövlətçilik fəlsəfəsinin, Heydər Əliyev məktəbinin və Azərbaycan xalqının milli birliyinin böyük qələbəsidir.

***Elbrus CƏFƏRLİ,***
***Pərviz SADAYOĞLU***

# Azərbaycan-Oman münasibətləri yeni mərhələdə...

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub.

Ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdən birini məhz böyük İslam coğrafiyasına aid ölkələrlə, o cümlədən də ərəb dövlətləri ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi təşkil edir. Bu gün müasir dövlət kimi inkişaf edən Azərbaycan öz siyasətində, həmçinin tarixi köklərə istinad edir və ənənələrə, milli-mənəvi dəyərlərə yüksək bağlılıq sərgiləyir. Ölkəmizin ərəb dövlətlərilə münasibətlərinin dərinləşməsinə münbit zəmin yaradan əsas faktorlardan biri məhz tarixi bağlılıq amilidir. Müqəddəs dinimiz, oxşar mənəvi dəyərlərimiz ölkələrimizi və xalqlarımızı birləşdirən çox mühüm amil qismində çıxış edir. Məhz bu amillər Azərbaycanla ərəb ölkələri ilə əlaqələri genişləndirir. Azərbaycanın İslam coğrafiyası ilə yaxınlaşmasında ilk növbədə təbii amillər, cəmiyyətlərin istəkləri və əlbəttə ki, dövlətlərin siyasi iradələri müstəsna rol oynayır. Ölkəmiz İslam dövlətləri ilə əməkdaşlığını ikitərəfli qaydada, həmçinin beynəlxalq platformalar üzərindən genişləndirir. Həm İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, həm də Ərəb Liqası ilə əməkdaşlıq müstəvisində də əlaqələr xüsusi vurğulanmalıdır.

Bu mənada, Oman Sultanlığı ilə münasibətlər də xüsusi əhəmiyyətə malikdir. Yeri gəlmişkən, oktyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Oman Sultanlığına rəsmi səfər edib. Səfər çərçivəsində nazir Oman Sultanının xüsusi nümayəndəsi Seyid Əsad bin Tariq Al Səid ilə görüşüb.Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə tərəflər Azərbaycan və Omanın həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə münasibətlərinin inkişafından məmnun olduqlarını bildiriblər.

İkitərəfli münasibətlərimizin yeni səviyyəyə qaldırılmasında və ölkələrimiz arasında siyasi və iqtisadi əməkdaşlığın daha da stimullaşdırılmasında yüksəksəviyyəli səfərlərin həlledici rolu vurğulanıb.Ölkəmizin Omanda səfirliyinin fəaliyyətə başlamasının əməkdaşlığa daha da təkan verəcəyinə əminlik ifadə olunub.

Parlament diplomatiyasının ikitərəfli münasibətlərin möhkəmlənməsində həlledici rol oynadığını qeyd edən nazir Azərbaycanın 2025-ci ildə ölkələrimizin parlamentləri tərəfindən dostluq qruplarının yaradılmasını yüksək qiymətləndirdiyini vurğulayıb.

Ceyhun Bayramov Azərbaycan tərəfindən 2026-cı ildə Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının növbəti Zirvə görüşü və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyinin əhəmiyyətinə toxunaraq, bu tədbirlərin dialoq, həmrəylik və dayanıqlı inkişaf prinsiplərinin təşviqi baxımından yeni əməkdaşlıq imkanları yaradacağını bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər, eləcə də regional vəziyyət müzakirə olunub.

Səfər zamanı Azərbaycanın XİN başçısı Oman Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili ilə də görüşüb. Görüş zamanı tərəflər Azərbaycan ilə Oman arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişafından məmnunluq ifadə edib, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən, iqtisadi, ticarət, enerji və humanitar sahələrdə genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Ölkələrimiz arasında parlamentlərarasıəməkdaşlıq əlaqələrinin inkişafı məmnunluqla qeyd edilib, hər iki parlamentdə dostluq qruplarının yaradılmasının münasibətlərin inkişafı istiqamətində mühüm addım olduğu vurğulanıb.

Görüşdə Azərbaycan ilə Oman arasında münasibətlərin inkişafında ikitərəfli siyasi təmasların mühüm rolu vurğulanıb.

Omanda Azərbaycan səfirliyinin fəaliyyətə başlamasının iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsinə və əlaqələrin dərinləşməsinə yeni imkanlar yaratdığı qeyd olunub.

Nazir  Azərbaycan tərəfindən 2026-cı ildə Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının növbəti Zirvə görüşü və Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyinin əhəmiyyətinə toxunaraq, bu tədbirlərin dialoq, həmrəylik və dayanıqlı inkişaf prinsiplərinin təşviqi baxımından yeni əməkdaşlıq imkanları yaradacağını bildirib.

Söhbət zamanı, həmçinin regional və beynəlxalq məsələlər, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.







***Nardar BAYRAMLI***

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib

Oktyabrın 30-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə qanvermə aksiyası keçirilib.

Respublika Qan Bankının Mobil şəraitdə qan tədarükü şöbəsinin müdiri Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər profilli xəstəliklərdən əziyyət çəkən insanlara dəstək verməkdir: "Respublika Qan Bankının əməkdaşları tərəfindən lazımi müayinələr aparılır, yararlı donorlardan qan götürülür. Toplanan qan Respublika Qan Bankının laboratoriya şöbəsində müayinədən keçirildikdən sonra xəstələr üçün istifadə olunacaq".

"Qanvermə həm məsuliyyətli, həm də xeyirxah missiyadır. Qana həmişə ehtiyac var, çünki onu heç bir dərman vasitəsi əvəz edə bilməz. İnsanlar ildə bir neçə dəfə qan verə bilərlər. Ümid edirik ki, belə aksiyalar bundan sonra da davam edəcək", - deyə Respublika Qan Bankının şöbə müdiri əlavə edib.

Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası qanvermə aksiyalarına hər zaman dəstək olur: "Budəfəki təşəbbüsünə görə də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk".

Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 400-ə yaxın YAP üzvü iştirak edib.









# Sabitliyin və inkişafın açarı...

## İctimai və dövlət maraqları uğrunda birliyimiz vacibdir

Dünyada informasiya müharibələri, dezinformasiyalar, sosial şəbəkələrdə saxta xəbərlər və fərdi maraqların ictimai rifahdan üstün tutulması cəmiyyətlər üçün ciddi təhdidə çevrilib. Bu şəraitdə dövlət maraqlarını müdafiə etmək sadəcə siyasi məsələ deyil, həm də milli məsələ hesab olunur. Hər bir yanlış paylaşım, hər bir məsuliyyətsiz fikir ictimai və dövlət maraqlarına zərər vura bilər. Unutmamalıyıq ki, dövlət maraqlarını qorumaq ilk növbədə dövlətçiliyi yaşatmaq deməkdir.

### Ortaq məsələ: Cəmiyyətin və dövlətin maraqları

Qeyd edək ki, dövlət maraqları olmadan ictimai maraqlar reallaşa bilməz. Ona görə də bu iki anlayış bir-birini tamamlayır və aralarındakı balansın qorunması həm dövlətin, həm də cəmiyyətin sabitliyini müəyyən edir. İctimai və dövlət maraqlarının müdafiəsi təkcə dövlət orqanlarının işi deyil. Hər bir vətəndaş bu prosesin iştirakçısıdır. Məsələn, qanuna hörmətlə yanaşmaq, ictimai mülkiyyəti qorumaq, informasiya məkanında yalan və təxribat xarakterli xəbərlərə qarşı ayıq olmaq - bunların hər biri dövlət maraqlarının müdafiəsi üçün real töhfədir.

### İnformasiya təhlükəsizliyi və milli maraqlar

Mövzuya aid fikirlərini "Yeni Azərbaycan"la bölüşən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Ceyhun Məmmədov bildirib ki, bu gün ictimai və dövlət maraqlarının müdafiəsində informasiya təhlükəsizliyi xüsusi önəm kəsb edir: "Sosial media platformalarında yayılan hər yanlış məlumat, hər manipulyativ xəbər ictimai fikri çaşdıra, dövlətin imicinə xələl gətirə bilər. Ona görə də hər bir vətəndaş informasiya paylaşarkən məsuliyyətli olmalı, məlumatın mənbəyini yoxlamalı və dövlətin informasiya siyasətinə hörmətlə yanaşmalıdır. Azərbaycan dövləti bu istiqamətdə mühüm addımlar atır. Qanunvericilikdə media etikası, kiber təhlükəsizlik, milli informasiya məkanı kimi məsələlərə ciddi yer ayrılıb. Lakin bu tədbirlərin səmərəsi yalnız vətəndaşların aktiv mövqeyi ilə mümkün olur".



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

### Dövlət maraqlarının qorunması sabitliyin təminatıdır

C.Məmmədov qeyd edib ki, dövlət maraqlarının müdafiəsi əslində, dövlət müstəqilliyinin müdafiəsidir: "Bu, iqtisadi sabitlikdən tutmuş milli təhlükəsizliyə, xarici siyasətdən daxili ictimai asayişə qədər geniş bir sahəni əhatə edir. Azərbaycan kimi strateji mövqedə yerləşən bir ölkə üçün bu məsələ xüsusilə önəmlidir. Qlobal miqyasda baş verən siyasi və iqtisadi proseslər, regional qarşıdurmalar və informasiya təhdidləri fonunda dövlətin maraqlarını qorumaq həm diplomatik səviyyədə, həm də ictimai şüurda prioritet olmalıdır. Ümumiyyətlə, ictimai və dövlət maraqlarının müdafiəsi yalnız hüquqi məsələ deyil, həm də mənəvi borcdur. Hər bir vətəndaş bu müdafiənin bir parçasıdır. Dövlətin uğuru, cəmiyyətin rifahı və sabitliyi məhz bu birliyə, qarşılıqlı inama və məsuliyyət hissinə bağlıdır".

### İctimai maraq və rəy özünü doğrultmasa...

Deputatın sözlərinə görə, dövlətin mənafeyindən çıxış etmək, şəxsi münasibətləri kənara qoyub, ictimai maraqlara üz tutmaq, hər bir Azərbaycan vətəndaşının borcudur: "Torpağı, vətəni, xalqı sevən hər bir kəs dövlət və ictimai maraqları üstün tutur və öz fəaliyyətini bu istiqamətdə qurur. Sözsüz ki, dövlət və ictimai maraqlar bir-biri ilə üst-üstə düşməlidir. Çünki dövlət maraqlarına məhz ictimaiyyət riayət etməlidir. İctimai maraq və rəy özünü doğrultmasa, bu zaman dövlət maraqlarını təmin etmək mümkün olmayacaq.

44 günlük müharibə və lokal antiterror tədbirləri bir daha göstərdi ki, Azərbaycan dövlətinin maraqları xalqın ictimaiyyətin maraqlarıdır. Çünki bu, eyni mənafedir və dövlət də, ictimaiyyət də eyni məqsəd uğrunda mübarizəyə qoşuldu. Hər ikisi özünün tarixi qələbəsini çaldı. Bu gün ölkədə baş verən inkişaf iqtisadiyyatın yüksəlişi, beynəlxalq aləmdə əldə olunan naliyyətlər, Azərbaycanın ən mötəbər tədbirlərə ev sahibi olması, digər tərəfdən iqtisadi ticarət əlaqələrinin gündən-günə genişlənməsi, məhz dövlət maraqlarının xalq tərəfindən ictimaiyyət tərəfindən müdafiə olunmasının bir nəticəsidir. Çünki Azərbaycan dövləti, demokratik sivil bir dövlətdir. Bu, dövlətin möhkəmləndirilməsi və inkişafı xalqın birliyindən, eyni zamanda dövlətin öz xalqına inamından, etimadından qaynaqlanır".

*Sahib*

# Etibarlı tərəfdaşlığın yeni mərhələsi

## Azərbaycan və Böyük Britaniya əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirir

Azərbaycan və Böyük Britaniya arasındakı münasibətlər qarşılıqlı etimad sütunları üzərində yüksələn xətlə inkişaf edir. Birləşmiş Krallıqla ölkəmiz arasında formalaşmış güclü iqtisadi, siyasi dialoqlar həm də regional əməkdaşlığa töhfələr verməkdədir. Hazırda hər iki dövlət yüksəksəviyyəli münasibətlərini daha da inkişaf etdirmək üçün ənənəvi neft-qaz sahəsi ilə yanaşı, ticarət və mühəndislik, bərpaolunan enerji, innovasiya və rəqəmsal texnologiyalar, "yaşıl enerji" infrastrukturlarının qurulmasında uzunmüddətli əməkdaşlığa önəm verir.

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Lordlar Palatasının üzvü Con Alderdays bildirib ki, ölkəsinin yeni sənaye strategiyası ölkənin qlobal liderliyə malik olduğu yeni innovasiya sektorlarını, o cümlədən "təmiz enerji" və rəqəmsal texnologiyaların inkişafını nəzərdə tutur və həmin sahələrdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə də xüsusi diqqət yetirilməkdədir.



### Britaniya şirkətlərinin yeni investisiya gündəliyi - "yaşıl enerji"

C.Alderdays vurğulayıb ki, Azərbaycan və Böyük Britaniya arasında çoxillik enerji tərəfdaşlığının yeni mərhələsi "təmiz enerji"yə keçidə əsaslanır. Bu sahədə xüsusi fəallığı ilə seçilən bp şirkətinin Azərbaycanda bərpa olunan enerji və dekarbonizasiya sahəsində ilk layihəni - "Şəfəq" Günəş elektrik stansiyasının inşasını həyata keçirməsi əməkdaşlıqda yeni səhifənin açılması hesab edilə bilər. C.Alderdaysın qənaətinə görə, Böyük Britaniya irimiqyaslı bərpaolunan enerji layihələrində dərin biliklərə malik aparıcı mühəndislik, layihə və konsaltinq şirkətlərinin vətənidir. Britaniya şirkətləri konseptual layihələndirmə, texniki-iqtisadi əsaslandırma və enerji sistemlərinin inteqrasiyası sahəsində güclüdür. Dünyanın ən böyük dəniz külək elektrik stansiyası olan "Dogger Bank" layihəsini reallaşdıran ingilislər öz qazaqcıl təcrübəsini Azərbaycanda da reallaşdıra bilər.

Bu isə enerji keçidi prosesinə investisiyaların artırılmasında Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan bp-nin yeni enerji siyasətində açdığı yeni cığır digər Britaniya şirkətləri üçün nümunə olmaqla, onların "yaşıl enerji" dəhlizlərinin inkişafı, dənizdə külək və hidrogen enerjisi, şəbəkələrin modernləşdirilməsi və enerji səmərəliliyinin artırılması kimi sahələrdə əməkdaşlığa cəlb olunmasını motivasiya edəcək.

Bir sözlə, ötən 30 illik enerji əməkdaşlığında əldə edilmiş uğurların növbəti davamı kimi ingilis şirkətlərinin Azərbaycana yeni enerji sərmayələrinin axını başlayacaq.

Con Alderdays Azərbaycanın regionda mühüm nəqliyyat və logistika mərkəzinə çevrildiyini də bildirib. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin ən axıcı qovşaqlarının yerləşdiyi regiondur, ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində həm Şərq-Qərb, həm də Şimal-Cənub marşrutları üzrə tranzit həcmi sürətlə artır. Son bir ildə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə yük daşımaları təxminən 60 faiz artıb. Eyni zamanda, Azərbaycandan keçən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin qərb marşrutu üzrə yük daşımaları da 30 faiz artıb. Azərbaycan

### Britaniya İxrac Kredit Agentliyi nəqliyyat sektoruna maliyyə dəstəyi verir

Avrasiyanın mərkəzində nəqliyyat-logistika qovşağı kimi mövqeyini gücləndirir, xüsusilə də Orta Dəhlizin inkişaf etdirilməsində strateji rol oynayır. Etibarlı sərhədyanı marşrutlara xüsusi əhəmiyyət verən Böyük Britaniya bu istiqamətdə Azərbaycanla həm tranzitlərin əlaqələndirilməsində, həm də logistika infrastrukturlarının modernləşdirilməsi, rəqəmsal həllərin tətbiqində faydalı əməkdaşlıq etmək niyyətindədir.

Hazırda geoiqtisadi reallıqlar, tranzit-logistika xətlərində meydana çıxan yeni fraqmentasiyalar beynəlxalq nəqliyyat daşınmalarında təmsil olunan şirkətlərin də fəaliyyətində vahid siyasətin tənzimlənməsini labüd edir. Bu baxımdan nəqliyyat sektorunda tətbiq edilən müasir yanaşma və idarəetmə prinsipləri, yeni korporativ idarətmə sistemi gözləntiləri doğultmağa başlayıb və bu qlobal tərəfdaşlar üçün də əhəmiyyət kəsb edir. Daha yığcam, daha məqsədyönlü və dinamik idarəetmə modelləri səmərəliliyi daha da artırır və nəqliyyat sektorunun rəqəmsallaşdırılması prosesi tariflərin təkmilləşməsində və optimist tarif təyinetməsinə imkan yaradır. Qeyd edilən məsələlər ingilis logistika şirkətləri üçün də əsas trendlərdir və tənzimləyici islahatlar sahəsindəki öz təcrübəsini Orta Dəhliz ölkələrinə, o cümlədən Azərbaycana təklif edir.

Eyni zamanda, nəqliyyat sektorunda davamlı maliyyə təchizatçısı olan Britaniya İxrac Kredit Agentliyi (UKEF) Azərbaycanın nəqliyyat sektorunun parkının modernləşməsinə böyük dəstək vermək niyyətini gizlətmir. Azərbaycanda ilk sövdələşməni tamamlayan UKEF Milli Aviasiya Akademiyası üçün Britaniyanın "L3Harris Commercial Aviation Solutions" şirkətinin istehsalı olan "Boeing 777" uçuş simulyatorunun alınmasını tam dəstəkləyib. "Silk Way" şirkətlər qrupu ilə bağlanmış bu sövdələşmə Böyük Britaniyanın qabaqcıl texnologiya və innovasiyaların inkişafına yönəlmiş yeni sənaye strategiyasına tam uyğundur.

UKEF ilə əməkdaşlığın davam etdirilməsi Azərbaycanda nəqliyyat, infrastruktur və rəqəmsal təşəbbüslərdə iştirak potensialını daha da artıracaq.

*E.CƏFƏRLİ*

# Dayanıqlı inkişaf statistikası sahəsində əldə olunmuş nailiyyətlər

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 64/267 nömrəli qətnaməsinə əsasən 2010-cu ildən başlayaraq hər 5 ildən bir oktyabr ayının 20-si Ümumdünya Statistika Günü kimi qeyd olunur. BMT-nin Statistika Komissiyasının 56-cı sessiyasında cari ilin 20 oktyabr tarixində sayca 4-cü olan bu əlamətdar günün "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilməsi qərara alınmışdır. Statistiklər gününün dünya səviyyəsində qeyd edilməsində əsas məqsəd müasir qloballaşma dövründə statistikanın rolunu və əhəmiyyətini statistik məlumat istifadəçiləri də daxil olmaqla, vətəndaş cəmiyyətlərinə çatdırmaqdan ibarətdir.

Azərbaycanın rəsmi statistikası 100 ildən artıq tarixə malikdir və bu illər ərzində böyük inkişaf yolu qət etmişdir. Bu inkişafda Ümummilli Lider Heydər Əliyevin və onun siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin misilsiz xidmətləri olmuşdur. Ümummilli Lider Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan statistikası zirvələrə yüksəlmiş, qəbul olunmuş Fərman və Sərəncamlar və onların icrası nəticəsində dünyadakı qabaqcıl rəsmi statistika ənənələri, elmi nailiyyətlər və yeniliklər mənimsənilərəkmilli statistika sisteminə tətbiq olunmuş, Azərbaycan statistikası dünya arenasında digər ölkələr üçün örnək sayılacaq səviyyəyə çatmışdır.

Məlum olduğu kimi, BMT-nin Baş Assambleyasının 2015-ci il 25 sentyabr tarixli A/RES/70/1 nömrəli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına, planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığının təmin edilməsinə təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" (bundan sonra - "Gündəlik-2030") təsdiq edilmişdir. "Gündəlik-2030"un icra vəziyyətinin monitorinq və qiymətləndirilməsi üçün BMT-nin Statistika Komissiyasının 48-ci sessiyasında Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə 244 göstəricidən ibarət qlobal göstəricilər sistemi müəyyən edilmiş və BMT Baş Assambleyasının 90-cı plenar sessiyasının 6 iyul 2017-ci il tarixli qətnaməsi ilə təsdiq edilmişdir. Sonrakı illərdə göstəricilər sisteminə bir neçə dəfə dəyişikliklər edilmiş və nəticədə DİM göstəricilərinin sayı 251-ə çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanına uyğun olaraq "Gündəlik-2030"dan irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Baş nazirinin müavinin sədrliyi ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (bundan sonra - Şura) yaradılmış, aidiyyəti qurumların, o cümlədən Dövlət Statistika Komitəsinin öhdəlikləri müəyyən edilmişdir. Fərmanın 4-cü bəndinə əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslər, Şuranın müraciəti əsasında ildə bir dəfə, DİM-ə nail olunmasına dair göstəricilər üzrə statistik məlumatların Dövlət Statistika Komitəsinə təqdim edilməsini, 5-ci bəndinə əsasən Dövlət Statistika Komitəsi DİM-ə müvafiq olaraq müəyyən edilmiş göstəricilər üzrə statistik məlumatların işlənilməsini və onların ildə bir dəfə Şuraya təqdim olunmasını təmin edir.

Fərmanın icrası olaraq, 2019-cu ilin fevralında Şura tərəfindən 17 DİM, 88 hədəf və 119 göstərici milli prioritet kimi müəyyənləşdirilmişdir. 2024-cü ildə isə prioritet hədəf və göstəricilərin siyahısına 8 hədəf və 10 göstərici əlavə olunmuş, bununla da prioritet hədəflərin sayı 96-ya, prioritet göstəricilərin sayı isə 129-a çatdırılmışdır (https://sdg.azstat.gov.az/az/reportingtargets).

DİM statistikasının təşkili, DİM-lə bağlı statistik potensialın gücləndirilməsi, o cümlədən DİM göstəriciləri üzrə yüksək keyfiyyətli, əlçatan, etibarlı, vaxtlı-vaxtında verilən və müxtəlif əlamətlərə görə dezaqreqasiya olunan statistik məlumatların toplanması, emalı, yayımlanması, müvafiq statistik məlumat bazasının hazırlanması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

DİM üzrə qlobal göstəricilər sistemində əks etdirilmişgöstəricilərin Azərbaycanın rəsmi statistikasında mövcudluq vəziyyəti təhlil edilmiş, onların məlumat mənbəyi və hazır olma müddəti müəyyənləşdirilmiş, müxtəlif mövzularda müayinələr keçirilmiş, statistika müşahidəsi formalarında DİM-ə dair məlumatların əlyetərliliyinin təmin edilməsi məqsədilə dəyişikliklər aparılmış, rəsmi statistikada mövcud olmayan göstəricilər üzrə məlumatların aidiyyəti dövlət orqanları ilə birgə əldə edilməsi üçün işlər görülmüş, beynəlxalq təşkilatlarla birlikdə müxtəlif layihələr icra olunmuş, dayanıqlı inkişaf statistikasının təşkili ilə bağlı digər tədbirlər həyata keçirilmişdir. Ölkə daxilində qəbul olunan bütün dövlət proqramları, strategiyalar, fəaliyyət planları DİM-lərləuzlaşdırılmış, ölkə başçısının 2018-ci il 14 fevral tarixli Sərəncamı ilə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" təsdiq edilmiş, proqrama DİM-lərlə bağlı bir sıra tədbirlər, o cümlədən DİM üzrə Portalın yaradılması, Çoxgöstəricili Klaster Sorğusu (MICS)və digər sorğuların keçirilməsinə dair tədbirlər daxil edilmişdir.

DİM göstəriciləri üzrə məlumat istehsalına 2018-ci ildən başlanılmış və hazırlanmış məlumatlar "Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal" adlı illik məcmuədə dərc olunmuşdur. Sözügedən məcmuəhər il Azərbaycan və ingilis dillərində nəşr olunur. Nəşrdə "Gündəlik-2030"da müəyyən olunmuş qlobal məqsəd və hədəflərin mahiyyəti izah edilir, onlara dair qlobal çağırışlar istifadəçilərin diqqətinə çatdırılır, milli kontekstdə dayanıqlı inkişafla bağlı tendensiyalar statistik göstəricilərlə təhlil edilərək müxtəlif qrafik və cədvəllərlə təsvir edilir (https://stat.gov.az/menu/6/statistical_yearbooks).

2019-cu ildə BMT-nin İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin dəstəyi ilə Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı (https://sdg.azstat.gov.az/az/home)yaradılmışdır. DİM üzrə məlumatların mətn, ayrı-ayrı qrafik təsvir və cədvəl vasitəsilə yayımının həyata keçirildiyi portalda həmçinin qlobal məqsəd, hədəf və göstəricilər, DİM üzrə milli prioritetlər, mövcud hüquqi çərçivə, sosial, iqtisadi və ekoloji sahələrdə həyata keçirilən dövlət proqramları, strategiyalar, hesabatlar və nəşrlərlə mütəmadi tanış olmaq imkanı təmin olunmuşdur.

Qeyd olunanlarla yanaşı, DİM göstəricilərinə dair qlobal metaməlumatlar Azərbaycan dilinə tərcümə edilmiş, göstəricilər üzrə beynəlxalq Avro-SDMX Metaməlumatlar strukturuna uyğun formatda metaməlumatlar hazırlanmış və DİM üzrə Milli Məlumatlandırma Portalında yerləşdirilmiş, DİM statistikası sahəsində məlumatların hazırlanması və çətinliklərin aradan qaldırılması məqsədilə işçi qruplar, o cümlədən məlumat istehsalını həyata keçirən dövlət qurumlarının nümayəndələrinin təmsil olunduğu Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Monitorinq və qiymətləndirmə üzrə İşçi Qrupu, Dövlət Statistika Komitəsinin və BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisinin Ofisinin nümayəndələrinin təmsil olunduğu "Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu" yaradılmış və onların fəaliyyəti təmin edilmişdirki, bunlar, DİM sahəsində statistik potensialın artırılmasınamühüm töhvə vermişdir.

DİM göstəriciləri üzrə məlumatların toplanılması məqsədilə müxtəlif sorğular keçirilmişdir. Bu tədbirlər arasında BMT-nin Uşaq Fondunun (UNICEF) dəstəyi ilə 2023-cü ildə keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu (MICS) xüsusi əhəmiyyət kəsb edir. MICS sorğusu "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın icrası olaraq ölkədə ana və uşaqların sosial rifah vəziyyətinin, insan inkişafının qiymətləndirilməsi və Dayanıqlı İnkişaf Məqsədləri ilə müəyyən edilmiş hədəflərə çatmanın ölçülməsi üçün beynəlxalq müqayisəliliyi təmin edən statistik məlumatların əldə edilməsi məqsədilə keçirilmişdir. 2024-cü ildə sorğunun nəticələrilə bağlı hesabat hazırlanmış və bu hesabat Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli, 526s nömrəli Sərəncamı əsasında yaradılmış, Baş nazirin müavininin rəhbərlik etdiyi, 18 dövlət qurumunun və UNICEF-in Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rəhbər vəzifəli şəxslərinin daxil olduğu İstiqamətləndirici Komitə tərəfindən təsdiq olunmuşdur. Hesabat Azərbaycan və ingilis dillərində nəşr olunmuş, onun elektron variantı pdf formatında Dövlət Statistika Komitəsinin (https://www.azstat.gov.az/MICS/result) və UNICEF-in (https://mics.unicef.org/surveys) rəsmi internet səhifələrində yerləşdirilmişdir.

MICS nəticəsində 18 DİM göstəricisi üzrə məlumat əldə edilmişdir.MICS əsasında həmçinin ana və uşaqların sağlamlığı, uşaqların qidalanması, funksional qabiliyyətləri, təməl öyrənmə bacarıqları, uşaq əməyi, məişət zorakılığı, viktimizasiya, su təchizatı və sanitariya, suyun, duzun keyfiyyəti və s. ilə bağlı çeşidli məlumatlar əldə edilmiş və bununla da, ölkəmizdə uşaqlara və qadınlara, eləcə də ev təsərrüfatlarına dair məlumatlar dəstinin daha da genişləndirilməsinə nail olunmuşdur.

Müxtəlif vaxtlarda keçirilmiş əhalinin ayrı-ayrı təbəqələrinin ərzağa əlyetərliyi vəziyyətinin və ona təsir edən amillərin öyrənilməsi, əhalinin fasiləsiz təhsildə iştirakı, işçi qüvvəsinə dair və s. seçmə statistik müayinələr əsasında da bir çox DİM göstəriciləri üzrə məlumatların toplanılması təmin edilmişdir.

Mövcud statistika müşahidələri formalarının DİM-lə uzlaşdırılması istiqamətində də işlər aparılmışdır. Müxtəlif vaxtlarda ayrı-ayrı müayinə formalarına yeni modullar və suallar daxil olunmuş, bununla da bir neçə DİM göstəricisi üzrə ("3.a.1  15 və yuxarı yaşda olan şəxslər arasında tütündən istifadənin yayılma səviyyəsi" və s.) məlumat istehsalı təmin olunmuş, eyni zamanda bir çox DİM göstəriciləri üzrə dezaqreqasiya kateqoriyalarının artırılmasına nail olunmuşdur.

İcrası başa çatdırılmış mühüm layihələrdən biri də "Azərbaycanda müqayisəli şəhər məlumatlarının əldə edilməsi üçün DEGURBA (urbanizasiya səviyyəsi) yanaşmasının tətbiqi" layihəsidir. BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Avropa Komissiyası ilə birlikdə həyata keçirilən layihə çərçivəsində 11-ci Dayanıqlı İnkişaf Məqsədinin ("Dayanıqlı şəhərlər və icmalar") "11.2.1 İctimai nəqliyyata rahat çıxışı olan əhalinin xüsusi çəkisi" göstəricisi üzrə 8 şəhərlə bağlı statistik məlumatlar hazırlanmışdır.

## İctimai nəqliyyata rahat çıxışı olan əhalinin xüsusi çəkisi (2022-ci ilin məlumatlarına əsasən), faizlə




Digər dövlət qurumlarının da DİM göstəriciləri üzrə məlumatların istehsalında fəaliyyətinin əlaqələndirilməsi istiqamətində addımlar atılmışdır. Hazırdainzibati məlumatistehsalçıları olan digər dövlət qurumları tərəfindən (Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və s.)39 DİM göstəricisi üzrə məlumatlar hazırlanaraq Dövlət Statistika Komitəsinə təqdim edilir. 1 göstərici üzrə hesablamalar 7 qurumun əməkdaşlarından ibarət İşçi Qrup tərəfindən aparılmışdır, 1 göstərici üzrə məlumatlar İqtisadiyyat Nazirliyi vəDövlət Statistika Komitəsi tərəfindən birlikdə hesablanmışdır.

DİM göstəriciləri üzrə məlumat istehsalında əsasən ənənəvi məlumat mənbələrindən (hesabatlar, seçmə müayinələr, siyahıyaalmalar) istifadə olunsa da, hazırda beynəlxalq aləmdə məlumatların alternativ mənbələr əsasında toplanılması praktikası getdikcə genişlənir və inkişaf etmiş bir çox ölkələrdə DİM-in monitorinqində peyk məlumatlarından istifadə olunur. Ölkəmizdə də belə təcrübə tətbiq olunmuşdur. 2021-ci ildə "Azərkosmos"la aparılmış işlər nəticəsində "15.4.2 a) Dağların bitki örtüyü indeksi" göstəricisi üzrə məlumatların məhz bu üsulla əldə olunması təmin edilmişdir. 2022-ci ildə isə sözügedən göstərici üzrə məlumatların dağ yüksəklikləri siniflərinə görə dezaqreqasiyasınınaparılmasına da nail olunmuşdur.

Peyk müşahidəsi məlumatları əsasında DİM göstəricilərinin hazırlanması sahəsindəki fəaliyyət davam etdiriləcəkdir. Rəsmi statistikanın inkişafına dair növbəti Dövlət Proqramının (2026-2030-cu illər üzrə) layihəsinə "Rəsmi statistik məlumatların hazırlanmasında peyk müşahidəsi məhsullarından istifadənin genişləndirilməsi" tədbiri daxil olunmuşdur və bu tədbirin icrası nəticəsində yeni DİM göstəriciləri üzrə məlumatların hazırlanması təmin olunacaqdır.

Görülmüş bütün işlərin nəticəsində, 2024-cü ilin yekunları üzrə, qlobal göstəricilər sistemində nəzərdə tutulmuş 251 göstəricidən 153-ü (61,0%), o cümlədən milli prioritet kimi müəyyənləşdirilmiş 129 göstəricidən 112-si(86,8%) üzrə məlumatların toplanılmasına nail olunmuşdur.

## DİM göstəriciləri üzrə statistik məlumatların istehsalı (2024-cü ilin yekunlarına əsasən)

| Məqsədlər | Qlobal göstəricilərin sayı | onlardan məlumat istehsalı təmin olunanlar | Milli prioritet kimi müəyyən edilmiş göstəricilərin sayı | onlardan məlumat istehsalı təmin olunanlar |
|---|---|---|---|---|
| DİM 1. Yoxsulluğa son | 13 | 7 | 6 | 5 |
| DİM 2. Aclığa son | 15 | 9 | 7 | 6 |
| DİM 3. Yaxşı səhiyyə və rifah | 28 | 22 | 19 | 18 |
| DİM 4. Keyfiyyətli təhsil | 12 | 11 | 10 | 10 |
| DİM 5. Gender bərabərliyi | 14 | 9 | 12 | 9 |
| DİM 6. Təmiz su və sanitariya | 11 | 10 | 8 | 8 |
| DİM 7. Sərfəli və təmiz enerji | 6 | 5 | 4 | 4 |
| DİM 8. Layiqli əmək və iqtisadi artım | 17 | 11 | 12 | 9 |
| DİM 9. Sənaye, innovasiya və infrastruktur | 12 | 9 | 10 | 9 |
| DİM 10. Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq | 14 | 6 | 5 | 4 |
| DİM 11. Dayanıqlı şəhərlər və icmalar | 16 | 6 | 7 | 3 |
| DİM 12. Məsuliyyətli istehlak və istehsal | 13 | 6 | 3 | 2 |
| DİM 13. İqlim dəyişiklikliyinə qarşı mübarizə | 8 | 3 | 2 | 2 |
| DİM 14. Dəniz ekosisteminin mühafizəsi | 10 | 4 | 2 | 2 |
| DİM 15. Torpaq ekosisteminin mühafizəsi | 14 | 6 | 5 | 5 |
| DİM 16. Sülh, ədalət və səmərəli institutlar | 24 | 15 | 9 | 8 |
| DİM 17. Məqsədlər üçün tərəfdaşlıq | 24 | 14 | 8 | 8 |
| **Cəmi** | **251** | **153** | **129** | **11 2** |

2023-cü ilin mart ayında "Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü"ndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev DİM-ə minatəmizləmə fəaliyyəti ilə bağlı 18-ci məqsədin əlavə edilməsi təşəbbüsü ilə çıxış etmişdir. Şuranın 2023-cü ilin 18 aprel tarixli iclasında "Milli 18-ci DİM ("Mina təhlükəsi ilə bağlı mübarizəyə dair fəaliyyətlər)" layihəsi təsdiq olunmuşdur. Milli 18-ci DİM 5 hədəfi əhatə edir və onların monitorinqi üçün 15 göstərici müəyyən edilmişdir. Dövlət Statistika Komitəsi tərəfindən aidiyyəti qurumlarla birlikdə 2023-cü ildə milli 18-ci DİM göstəricilərinə dair metodologiya hazırlanmış, 2024-cü ildən etibarən isə həmin göstəricilər üzrə məlumatlar toplanılmış və yayımlanmışdır.

## Milli 18-ci DİM üzrə hədəf və göstəricilər

| Hədəflər | Göstəricilər |
|---|---|
| **18.1. Ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi, sülh və təhlükəsizliyin təmin olunması** | 18.1.1. İşğaldan azad edilmiş ərazilərdə zərərsizləşdirilmiş: a) minaların sayı (tank əleyhinə və piyada əleyhinə minalar bölgüsündə); b) digər partlayıcı sursatların sayı |
| | 18.1.2. İşğaldan azad edilmiş ərazilərdə minalardan və digər partlayıcı sursatlardan təmizlənmiş ərazilər (ha) və onların ölkənin ümumi ərazisində xüsusi çəkisi (faizlə) |
| **18.2. Ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi üçün vəsaitlərin cəlb edilməsi** | 18.2.1. Ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi üçün: a) dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği (milli valyuta və ABŞ dolları ilə); b) dövlət büdcəsindən ayrılmış vəsaitin dövlət büdcəsi xərclərinə nisbəti (faizlə) |
| | 18.2.2. Ərazilərin minalardan və digər partlayıcı sursatlardan təmizlənməsi üçün donor təşkilatlardan cəlb olunmuş vəsaitin ümumi məbləği (milli valyuta və ABŞ dolları ilə) |
| **18.3. İşğaldan azad edilmiş ərazilərdə yaşayış üçün təhlükəsiz şəraitin yaradılması və əhalinin reinteqrasiyası** | 18.3.1. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan yaşayış məntəqələrinin sayı |
| | 18.3.2. İşğaldan azad edilmiş ərazilərdə bərpa olunan yaşayış məntəqələrində məskunlaşmış əhalinin: a) sayı (yaşayış məntəqələri bölgüsündə); b) ölkə əhalisinin ümumi sayında xüsusi çəkisi (yaş, cins bölgüsündə) |
| | 18.3.3. İşğaldan azad edilmiş ərazilərdə məşğul əhalinin sayı (yaş, cins bölgüsündə):<br>18.3.3.1. Daimi əhali<br>18.3.3.2. Müvəqqəti yaşayan əhali |
| | 18.3.4. Mina və digər partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə (PSTM) tədbirləri ilə əhatə olunmuş şəxslərin sayı |
| **18.4. Minalardan və digər partlayıcı sursatlardan təmizlənmiş torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması** | 18.4.1. Minalardan və digər partlayıcı sursatlardan təmizlənmiş ərazilərdə kənd təsərrüfatı dövriyyəsinə cəlb olunmuş sahələr (ha) |
| **18.5. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş əhalinin tibbi-sosial reabilitasiyası və sosial müdafiəsinin gücləndirilməsi** | 18.5.1. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş: a) hərbi qulluqçuların, onlardan minatəmizləmə fəaliyyətinə cəlb edilənlərin; b) mülki şəxslərin, onlardan minatəmizləmə fəaliyyətinə cəlb edilənlərin sayı (yaş və cins bölgüsündə):<br>18.5.1.1. Həlak olmuş şəxslərin sayı<br>18.5.1.2. Xəsarət almış şəxslərin sayı<br>18.5.1.2.1. Əlilliyi müəyyən olunmuş şəxslərin sayı<br>18.5.1.3. Digər |
| | 18.5.2. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş şəxslərdən sosial müdafiə proqramları ilə əhatə olunanların sayı |
| | 18.5.3. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş şəxslərə münasibətdə həyata keçirilmiş sosial ödənişlərin məbləği (milli valyuta və ABŞ dolları ilə) |
| | 18.5.4. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş şəxslərin müalicə xərcləri (milli valyuta və ABŞ dolları ilə) |
| | 18.5.5. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş şəxslərin tibbi-sosial reabilitasiya xərcləri (milli valyuta və ABŞ dolları ilə) |
| | 18.5.6. Minalardan və digər partlayıcı sursatlardan zərər çəkmiş əhalinin sosial müdafiəsi məqsədilə xərclənmiş vəsaitin ümumi məbləği (milli valyuta və ABŞ dolları ilə) |

Dövlət Statistika Komitəsi ölkəmizin DİM üzrə Könüllü Milli Hesabatlarının (KMH) hazırlanmasında da əhəmiyyətli rol oynamışdır. 2024-cü ilin iyulunda BMT-nin Nyu-Yorkdakı Baş qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forumda (YSSF) Azərbaycan DİM üzrə 4-cü KMH-ni təqdim etmiş və həmin tarixə dünyada 4-cü KMH-ı təqdim edən 5 ölkədən biri, regionda və MDB məkanında ilk ölkə olmuşdur. Əvvəlki KMH-lər YSSF-ə 2017-ci, 2019-cu, 2021-ci illərdə təqdim olunub. Hər 4 KMH Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış keyfiyyətli, etibarlı, əlçatan və cins, yaş, gəlir səviyyəsi, yaşayış yeri (şəhər/kənd), əlillik, miqrasiya statusu və milli kontekstdə əhəmiyyət kəsb edən digər əlamətlərə görə dezaqreqasiya olunan statistik məlumatlar əsasında tərtib olunmuş, bu məlumatlar əsasında təhlillər aparılmışdır.

Sonda qeyd olunmalıdır ki, ölkəmizdə statistikanın ən "gənc"sahələrindən olanDİM statistikasının formalaşdırılmasına nail olunmuşdur və bütün çətinliklərə baxmayaraq bu sahədə işlər davam etdirilərək yeni-yeni nailiyyətlərə imza atılacaqdır.

***Sevinc Qaragözova,***
***Dövlət Statistika Komitəsi Dayanıqlı inkişaf statistikası şöbəsinin Statistik məlumatların kompleks təhlili sektorunun aparıcı məsləhətçisi***

# Gözlənilən görüş baş tutdu...

## İki dünya nəhəngi bir masa arxasında

### Çin ilə ABŞ arasında “buzlar əriyir” - faiz dərəcələri azaldıldı



Çin ilə ABŞ arasında aylardır davam edən “susqun mesajlaşma” deyəsən başa çatıb. Belə ki, Cənubi Koreyada keçirilən Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq sammiti çərçivəsində ABŞ prezidenti Donald Tramp və Çin Xalq Respublikasının sədri Si Cinpin arasında görüş baş tutub. Görüşdən öncə Donald Tramp “Truth Social”da bu barədə yazaraq görüşü “Bu, hər ikimiz üçün əla görüş olacaq!” - deyə xarakterizə edib. Xatırladaq ki, dövlət başçıları Cənubi Koreyadakı Gimhae Hərbi Hava Bazasında qapalı qapılar arxasında görüşüblər. Danışıqlardan əvvəl açıqlamalar verən dövlət başçıları görüşdən sonra mətbuata açıqlama verməyiblər. Tramp Asiya turnesini başa vuraraq ölkəsinə qayıdıb.

### Razılaşmalar əldə edilib

Xarici medianın yazdığına görə, görüşdə tərəflər arasında bir sıra iqtisadi razılaşmalar əldə olunub. Si Cinpini görüşdə xarici işlər naziri Vanq Yi, aparat rəhbəri Cai Qi, Milli İqtisadi Planlaşdırma Komissiyasının sədri Çjen Şanje və ticarət naziri Vanq Ventao müşayiət edib.

ABŞ tərəfini isə dövlət katibi Marko Rubio, maliyyə naziri Skott Bessent, ABŞ-ın Çindəki səfiri Devid Perdu və Ağ Evin aparat rəhbəri Syuzan Uayls təmsil edib.

1 saat 40 dəqiqə davam edən görüşdə bir sıra məsələlərlə bağlı razılaşmalar əldə olunub. Belə ki, artıq ABŞ-dan Çinə soya satışları dərhal bərpa olunacaq, fentanil üzərinə qoyulan tariflər 20 faizdən 10 faizə endiriləcək. Bundan başqa, ümumi tarif dərəcələri 57 faizdən 47 faizə endiriləcək. Çin nadir torpaq elementlərinin ixracını davam etdirəcək. Çin, ABŞ-ın NVIDIA şirkəti ilə çip istehsalı sahəsində danışıqlara başlayacaq. ABŞ prezidenti həmçinin bildirib ki, Si Cinpin Ukrayna münaqişəsinin həlli istiqamətində vasitəçilik etməyə hazır olduğunu da deyib. Tərəflər həmçinin qarşılıqlı səfərlər barədə razılaşıblar - qərara alınıb ki, gələn ilin aprelində Donald Tramp Çinə gedəcək. Si Cinpinin səfəri isə daha yaxın zamana planlaşdırılır. Tramp əlavə edib ki, danışıqlar zamanı Tayvan məsələsi və Rusiya nefti ilə bağlı ticarət məsələləri müzakirə olunmayıb.

### Maneələr aradan qaldırılıb

ABŞ prezidentinin sözlərinə görə, “maneələr aradan qaldırılıb” və Busan şəhərində keçirilən görüşdə əldə edilən razılaşma bir il müddətinə qüvvədə olacaq - bu razılaşmanın gələcəkdə uzadılması da mümkündür. Vurğulandığı kimi, Çin nadir torpaq metallarının hasilatı və emalı sahəsində dünya lideridir və bundan ABŞ ilə ticarət danışıqlarında təsir nöqtəsi kimi istifadə edib. Nadir torpaq metalları sənayedə, eləcə də yüksək texnologiya və müdafiə sektorlarında vacibdir. Onlardan, xüsusən də smartfon və televizor ekranlarının istehsalında, eləcə də elektrik mühərriklərinin ötürücülərində, yarımkeçiricilərdə və turbinlərdə istifadə olunur.

Bundan əlavə, Tramp bəyan edib ki, Çin ABŞ-dan kütləvi miqdarda soya və digər kənd təsərrüfatı məhsulları idxal edəcək. DPA xəbər agentliyinin məlumatına görə, Pekin əvvəllər Vaşinqtonun Çin mallarına qarşı tarif artımlarına cavab olaraq idxal edilən ABŞ soya paxlasına daha yüksək rüsumlar tətbiq etmişdi. Bu isə amerikalı fermerlərin maraqları ilə uzlaşmırdı. Agentliyin məlumatına görə, 2024-cü ildə ABŞ-ın soya idxalının yarıdan çoxu Çinə göndərilib. Lakin bu il Çinə idxalın həcmi 50 faiz azalıb və payız məhsulu üçün heç bir sifariş alınmayıb.

Qeyd edək ki, Tramp Si Cinpini uzunmüddətli dost və “böyük bir ölkənin böyük lideri” adlandırıb. O, ABŞ və Çinin uzunmüddətli perspektivdə fantastik münasibətlər quracağına ümid etdiyini bildirib. Tramp təyyarəsinedə jurnalistlərə qısaca bir çox qərarların qəbul edildiyi “gözəl görüş”dən danışıb: “Düşünürəm ki, sıfırdan 10-a qədər şkala üzrə, 10 ən yaxşıdırsa, mən deyərdim ki, bu görüş 12 idi”.

### Ukrayna məsələsində birgə fəaliyyət...

CNN-in məlumatına görə, Vaşinqtonun texnologiya ixrac nəzarətində heç bir əhəmiyyətli dəyişiklik gözlənilmir: Tramp bildirib ki, Si Cinpin ilə görüşündən sonra Pekin və çip nəhəngi NVİDİA arasında əlavə danışıqlar aparılacaq. Amerikalılar əvvəllər yalnız müttəfiqlərinə qabaqcıl çiplər və süni intellekt modelləri ixrac etmək qərarına gəlmişdilər ki, bu da Çin tərəfindən tənqid olunmuşdu. Liderlər Çin üçün həssas məsələ olan Tayvanı müzakirə etməyiblər. Lakin Moskva ilə Kiyev arasındakı münaqişəyə toxunulub. “Nəticə əldə etmək üçün birlikdə işləmək barədə razılığa gəldik. Razılaşırıq ki, iki tərəf, bilirsiniz, qarşıdurma içindədir və döyüşür. Bəlkə də, bəzən onların döyüşməsinə icazə verməlisən. Biz Ukrayna məsələsində birlikdə işləyəcəyik”, - deyə Tramp bildirib.

Amerika lideri həmçinin Vaşinqtonun hazırda fəal şəkildə qarşısını aldığı Rusiya neftinin üçüncü tərəflərin alışı məsələsinə də toxunub. “Onlar uzun müddətdir ki, Rusiyadan neft alırlar. Bu idxal Çinin ehtiyaclarının əhəmiyyətli bir hissəsini ödəyir. Hindistan Rusiya neftindən imtina etməklə düzgün iş görür. Amma biz görüşdə nefti müzakirə etmədik”, - deyə Tramp şərh edib. Qeyd edək ki, ABŞ Prezidenti əvvəllər Rusiya neftinə qarşı sanksiyaları Moskvanı danışıqları davam etdirməyə təşviq etmək niyyəti daşıdığını bildirmişdi və həmçinin Çin və Hindistanı Ukraynadakı münaqişənin əsas “sponsorları” adlandırmışdı.

### Çinin inkişafı Trampın “Amerikanı yenidən böyük etmək” məqsədi ilə ziddiyyət təşkil etmir

Çin lideri Si Cinpin isə bildirib ki, dünyanın ən böyük iki iqtisadiyyatı arasında zaman-zaman sürtünmənin yaranması normaldır. Si Cinpin Çin və ABŞ tərəfdaş və dost olmalıdır deyə qeyd edib. O, görüşdən əvvəl vurğulayıb ki, Çinin inkişafı və dirçəlişi Trampın “Amerikanı yenidən böyük etmək” məqsədi ilə ziddiyyət təşkil etmir. Xinhua agentliyinin məlumatına görə, Si Cinpin ölkələrin birlikdə uğura və çiçəklənməyə nail ola biləcəyinə inandığını önə çəkib. Çin lideri bildirib ki, “Mən Prezident Trampla Çin-ABŞ münasibətləri üçün möhkəm təməl qoymaq və hər iki ölkənin inkişafı üçün əlverişli şərait yaratmaq üçün işləməyə davam etməyə hazıram”.

O, həmçinin Çin və ABŞ-ın əsas məsələlərdə razılığa gəldiyini və irəliləyiş əldə etdiyini vurğulayıb. Çin liderinin sözlərinə görə, onlar Trampın seçilməsindən bəri sıx əlaqə saxlayıblar, üç telefon danışığı aparıblar və çoxsaylı məktub mübadiləsi həyata keçiriblər.

Qeyd edək ki, görüş Donald Trampın ikinci müddət prezidentliyi dövründə Çin lideri ilə ilk ikitərəfli görüşü idi.

**SADİQ**

---

## Paşinyan əlinə düşən fürsətdən yararlanmağa çalışır

# Ermənistanda siyasi vəziyyət gərginləşir: hakimiyyət erkən seçkilərə gedəcəkmi?

Son aylarda Ermənistanda siyasi proseslər yeni gərginlik mərhələsinə daxil olub. Hökumət daxilində yaranan ziddiyyətlər, müxalifətin küçələrdə aktivləşməsi, cəmiyyətin sosial narazılığı və beynəlxalq təzyiqlərin artması ölkədə siyasi sabitliyin getdikcə pozulduğunu göstərir. Paşinyan hakimiyyəti faktiki olaraq həm daxili, həm də xarici təcrid vəziyyətinə düşüb.

Paralel olaraq Ermənistanda iqtisadi göstəricilərin zəifləməsi, sosial rifahın aşağı düşməsi və Qarabağdakı reallıqlarla barışmaq istəməyən revanşist qüvvələrin təzyiqi qarşıdan gələn parlament seçkiləri ilə bağlı ortaya bir çox suallar çıxarıb. Bir çox analitik mərkəzlər hətta Paşinyan hakimiyyətinə olan etimadın əvvəlki illərlə müqayisədə kəskin azaldığını iddia edirlər. Xüsusilə seperatizm meyllərini əlində bayrağa çevirməyə çalışan revanşist qrupun fəallaşması, din xadimlərinin və bəzi keçmiş hərbçilərin proseslərə müdaxiləsi vəziyyəti daha da mürəkkəbləşdirir. Müxalifət Paşinyanı “milli maraqları satmaqda” ittiham edir, hökumət isə onları “xarici qüvvələrin əlində alət” adlandırır.

### Risk nə qədərdir?

Xatırladaq ki, Ermənistanda parlament seçkiləri 2026-cı ilin iyun ayında keçiriləcək. Seçkilərdə iştirakla bağlı artıq Ermənistanın ikinci prezidenti Robert Köçəryan, yeni yaratdığı “Birlik Qanadları” təşəbbüsü vasitəsilə keçmiş ombudsman Arman Tatoyan və iş adamı, iyunun 18-dən həbsdə saxlanılan Samvel Karapetyanın rəhbərlik etdiyi “Po-Naşemu” hərəkatı bəyanat verib.

Müşahidəçilərin fikrincə, Paşinyan üçün real siyasi manevr imkanları azalır. O, ya hakimiyyəti itirmək riski ilə üz-üzə qalacaq, ya da vəziyyəti idarə etmək üçün erkən parlament seçkilərinə gedəcək. Bunun həm daxili gərginliyi azaltmaq, həm də beynəlxalq aləmdə “demokratik imic”ini qorumaq baxımından onun üçün daha münasib variant sayıla biləcəyi ehtimal edilir.

Lakin seçkilərin keçirilməsi də Paşinyan üçün risklidir: reytinqi aşağı olan “Vətəndaş Müqaviləsi” partiyasının əvvəlki çoxluğu qoruyacağına inam yoxdur. Müxalif blokların birləşməsi halında parlament balansı dəyişə bilər.

Hər bir halda, artıq seçkiyə hazırlıq prosesi start götürüb. 7 iyun 2026-cı ilə təyin edilən seçkilərə hələ səkkiz ay qalsa da, artıq hakim partiyada seçki kampaniyası meneceri təyin edilib. Məhz bu səbəbdən də komanda Paşinyanın erkən seçkilərlə bağlı niyyətindən şübhələnib. Baş nazirin bu tələskənliyi də hakim partiyanın əksər üzvlərinin şübhələnməsinə səbəb olub. Ehtimal edilir ki, erkən seçkilərlə bağlı artıq qərar verilib və bu, sadəcə partiya elitası arasında müzakirə edilir. Məlum olub ki, seçki kampaniyasına Baş nazirin aparat rəhbəri Arayik Harutyunyan rəhbərlik edəcək.



### Tələsmədən hazırlıq...

Amma hakimiyyət bu hazırlığını erkən seçki ilə bağlamır - Harutyunyan oktyabrın 29-da jurnalistlərə bildirib ki, Ermənistanda erkən parlament seçkilərinin keçirilməsinə ehtiyac yoxdur. Onun sözlərinə görə, bu ilin avqust və sentyabr aylarında hakim partiyanın bəzi nümayəndələri erkən seçkilərin keçirilməsi ehtimalını müzakirə ediblər, lakin bu gün ölkə növbəti seçkilərə doğru irəlilədiyindən buna ehtiyac olmadığı aydındır.

Harutyunyan seçki kampaniyasına rəhbərlik etmə məsələsinə də aydınlıq gətirib. O, partiyanın qərarında hər hansı bir intriqa axtarmağa ehtiyac olmadığını önə çəkib: “Hökumət siyasi qüvvələrə tələsmədən, sakit bir mühitdə hazırlaşaraq və işi düzgün təşkil edərək seçki kampaniyasına start verməyə imkan yaradıb. Ümumiyyətlə, istənilən siyasi qüvvə vaxtında baş tutan və ya erkən seçkilərdən sonra dərhal seçki qərargahı yarada və yeni prosesə hazırlaşa bilər”.

Baş nazirin aparat rəhbəri fors-major hallar yaranarsa, erkən seçkilərin keçirilməsi ehtimalını da istisna etməyib. “Amma biz 7 iyunda keçiriləcək növbəti seçkilərə hazırlaşırıq”, - deyə Harutyunyan bildirib. Müxalifət üzvlərinin sanksiyalanması və həbsi ilə bağlı ölkədəki vəziyyətdən danışan Araik Harutyunyan Ermənistanı qanunun aliliyi ilə idarə olunan dövlət adlandırıb. “Cinayət törətmiş bütün şəxslər, istər hökumət, istərsə də müxalifət nümayəndələri olsun, məsuliyyətə cəlb olunur və ya məhkəmə prosesi başlayır”, - deyə o bildirib.

### Vaşinqton danışıqları Paşinyanın “əlini möhkəmləndirdi”...

Müxalifət isə erkən seçiklərdən nə isə əldə edə biləcəyinə inanmır. Son 1 ildə situasiya dəyişib - əgər ötən il Ermənistan müxalifəti Paşinyanın baş nazir vəzifəsini icra etməyəcəyi qarşılığında erkən seçkilərə getməyə hazır olduqlarını deyirdilərsə, artıq proses fərqli yön alıb. Bu ilin avqustunda Vaşinqtonda keçirilən danışıqlar, sülh prosesinin irəliləməsi, Azərbaycanın Ermənistana yük daşımalarına qadağasını aradan qaldırması cəmiyyəti sülhə daha meylli edib - əhalinin mühüm bir hissəsi Azərbaycanla münasibətlərin normallaşmasını və regionda kommunikasiyaların açılmasını zəruri hesab edir. Revanşits əhval-ruhiyyəli müxalifəti və kilsəni dəstəkləyən azlıq isə hələ də 2020-ci ilin reallıqları ilə barışmaq istəmir və “qisas” şüarları altında revanşist mövqe tutur. Birinci qrupun sayının günü-gündən artması Paşinyanın siyasi manevr imkanlarını genişləndirir. Xüsusilə sülh danışıqlarının və Zəngəzur dəhlizinin (TRİPP) açılması ilə bağlı müzakirənin Vaşinqtonda baş tutması hazırkı baş nazirin “əlini möhkəmləndirir”. Bu səbəbdən də siyasi analitiklər Paşinyanın həm də yaranan münbit vəziyyətdən istifadə edərək erkən parlament seçkilərinə gedə biləcəyi ehtimalını irəli sürür. Atılacaq bu addım həm beynəlxalq imic baxımından onun üçün “demokratik manevr” ola bilər, həm də daxildə legitimliyi daha da möhkəmləndirər. Başqa sözlə, siyasi şərhçilər Azərbaycanla sülh danışıqlarını Paşinyan hökuməti üçün həm də vətəndaşlara müraciət üçün ən mühüm əsas sayırlar - sülh sazişin imzalanması Ermənistanın regional təcriddən çıxması, iqtisadi əlaqələrin bərpası və kommunikasiya xətlərinin açılması üçün tarixi fürsət yaradır. Paşinyan bu amili özünün təbliğat vasitəsinə də çevirə bilər. Sülhü inkar edən müxalifətin Ermənistana hara sürüklədiyini cəmiyyətə bütün konturları ilə çatdıra bilsə, Paşinyan və partiyası yenə də parlament çoxluğunu əlində saxlayacaq.

### Paşinyan seçim qarşısında...

Nəhayət, Ermənistanın qarşısında duran əsas dilemma xarici vektorlarla bağlıdır. Hazırkı şəraitdə Rusiya ilə münasibətlər tarixi minimuma enib, Qərb isə Paşinyandan islahatlar və regional əməkdaşlıq tələb edir. Qərb dairələri üçün Paşinyan hələlik “idarəolunan tərəfdaş”statusunu qorusa da, onun zəifləməsi yeni siyasi fiqurların önə çıxmasına şərait yaradır.

Hazırkı reallıqlar göstərir ki, Ermənistan siyasi sabitlik əldə etmək üçün yolunu düz seçməli, spekulyaisyaya cəhd etməməlidir. Çünki vaxt keçdikcə hökumət üəçün vəziyyət gərginləşə bilər - revanşist müxalifət prosesləri küçə mitinqləri və sosial narazılıqlar fonunda yönləndirməyə çalışacaq. Bu isə Paşinyan üçün ciddi siqnaldır və qarşıya mühüm bir seçim qoyur - ya erkən seçkilərə gedərək vəziyyəti nəzarətə almaq, ya da siyasi təcrid vəziyyətində istefaya məcbur olmaq...

**P.İSMAYILOV**

# ABŞ-da uçot faizləri endirildi

## Ölkənin hökumət və bank qurumları arasında "qarşıdurma" güclənir

ABŞ-ın Mərkəzi bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) uçot dərəcəsini 0,25 baza bəndi azaldaraq illik 3,75-4 faiz aralığına endirib. Bu barədə qərar maliyyə qurumunun Açıq Bazar Əməliyyatları üzrə Federal Komitəsinin (FOMC) iclasında qəbul olunub. Bu, 2025-ci ildə ikinci faiz azaldılmasıdır. Belə ki, FES sonuncu dəfə sentyabrın 17-də keçirilən iclasında uçot dərəcəsini 4,5 faizdən 4,25 faizə endirib. Ondan əvvəl isə faiz dərəcəsi ardıcıl beş iclas boyunca dəyişməz saxlanmışdı.

FES-in bu addımı atmaqda əsas məqsədi aşağı inflyasiya mühitində iqtisadiyyatda müşahidə edilən geriləməni aradan qaldırmaq və maliyyə-bank sistemini daha aşağı uçot dəhlizi çərçivəsində iqtisadiyyata böyük pul axınlarını, investisiyaları təmin etməkdən ibarətdir.

### Tpamp ölkənin pul siyasətinə müdaxilə edir

Məsələ ondadır ki, FES-in faiz qərarı Komitə üzvləri tərəfindən yekdilliklə qarşılanmayıb, bank şurası bu addımın ölkənin makro-maliyyə siyasəti baxımından əlverişsiz olduğunu bildirib. Hətta faiz qərarı təsdiqlənsə də, ölkənin pul siyasəti ilə bağlı icmal hesabatı açıqlanmayıb. Bunun səbəbi Federal hökumətin investisiya xərclərinin maliyyələşdirilməsində çətin vəziyyətlər yaşaması, respublikaçılar və demokratlar arasında büdcə xərcləri ilə bağlı razılaşmanın əldə olunmaması, ölkədə maliyyə siyasətindəki natarazlıqlarla izah edilir.

FOMC ekspertlərinin qənaətinə görə, inflyasiya ilin əvvəlindən artdığı və hökumətin proqnoz ssenarilərinə nisbətən bir qədər yüksək olaraq qaldığı halda faiz qərarı risklərə yol açacaq. Qiymət indeksləri hələ də əlverişsiz olaraq qalır və uçot stavkasının aşağı salınması maliyyə bazarlarında əlavə təhdidlər yarada bilər. Həmçinin bu addım maliyyə sistemində müsbət dəyişiklik yaratmamaqla, iqtisadi perspektivlə bağlı qeyri-müəyyənliyi daha da gücləndirəcək. FES-in üzvləri arasında mövcud addımın birbaşa siyasi sifariş olmasına dair fikirlər də diqqətdən qaçmayıb. Məsələn, Cefri Şmidt bəyan edib ki, Prezident Donald Tramp FES-ə təzyiq edərək faizlərin endirilməsini təkid etməklə, bank siyasətini təhdid altında saxlayır. Məqsəd ölkədə aşağı bank indeksləri, ucuz dollar siyasəti çərçivəsində kriptobazarı canlandırmaqdır ki, bu da Tramp və ona yaxın iri investorlara sərf edir.




### FES yenidən faiz endiriminə getmək istəmir

Ümumiyyətlə, Tramp daha kəskin faiz endirilməsini tələb edir, onun maliyyə siyasəti ucuz dollar, bahalı qızıl və rəqəmsal valyuta investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır. Bu baxımdan Federal Ehtiyat Sisteminin yumşaq pul siyasəti rəqəmsal valyuta və qızıl birjalarını daha canlandırır.

Ancaq bu siyasət ABŞ-da hökumət və iqtisadi strukturlar, eləcə də parlament fraksiyaları arasında ciddi fikir ayrılıqlarına səbəb olmaqdadır və onlar Trampın mövcud siyasətini, əlalxüsus da FES-in fəaliyyətinə müdaxiləsini düzgün yanaşma hesab etmirlər. FES-in rəhbər şurası da yumşaq pul siyasətini məqsədəuyğun hesab etmir. FES sədri Jerome Pouell isə bildirib ki, inflyasiya üçün risklər yuxarı, məşğulluğ isə aşağıya doğrudur, yəni maliyyə sektorlarında tam sabitlikdən danışmaq olmaz. Ancaq müsbət məqam ölkə üzrə iqtisadi artımın gözlənilən həddə qorunub saxlanmasıdır.

J. Pouell bildirib ki, bütün bu fraqmentasiyalar ciddi şəkildə təhlil ediləcək və aşağı faiz siyasətindən imtina olunması istisna deyil. Onun fikrincə, hökumətdə təkidlərə baxmayaraq, dekabr ayında FES-in növbəti iclasında faiz endiriminin olacağına əmin deyil.

### Qlobal investorlar Trampın siyasətini dəstəkləyir

ABŞ-da uçot dərəcəsindəki dəyişiklik qlobal iqtisadiyyat üçün mühüm əhəmiyyət kəsb edir. FES-in qərarları ABŞ iqtisadiyyatı ilə yanaşı, dünya üçün istiqamətverici rol oynayır. Xüsusilə də investisiya bazarlarında və birjalarda ənənəvi sindrom kimi maliyyə və investisiya alətlərinə ciddi təsirlərini göstərir. Ona görə də, qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhm investorları FES-in qərarını diqqətdə saxlayır, faizlərin aşağı salınmasından məmnun qalırlar. Onlar Trampın mövcud maliyyə siyasətini dəstəkləyərək aşağı faiz dəhlizinin davam etməsinin tərəfdarıdırlar.

Xarici ticarət iştitakçıları da faiz siyasəti ilə bağlı situasiyalara həssas yanaşırlar. Çünki uçot dərəcəsi ilə bağlı qərarlar dollarla ticarət edən ölkələrdə, inkişaf edən iqtisadiyyatlarda və enerji ixracatçısı olan dövlətlərdə bu birbaşa iqtisadi proseslərə təsir göstərir. Bu baxımdan uçot dərəcəsinin azaldılması dolların məzənnəsinin zəifləməsi fonunda ABŞ valyutası ilə ticari-iqtisadi mübadilələr aparan dövlətlərin milli tədiyyə balansları, valyutalarının dəyərinin sabitliyi üçün mühüm rol oynayır.

***ELBRUS***

# Barını çürüdən ağac

## Onore de Balzakın "Yevgeniya Qrande" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Balzak bu romanında da saf gənclik duyğularını, ülvi sevgini şeytani ehtirasların, var-dövlət hərisliyinin sınağından keçirir. Şeytan bu savaşdan da qalib çıxır, insanın guya mülkiyyəti, gücü-təpəri, sadiq qulu, nökəri sayılan qızıl, sərvət sahibinin qəniminə çevrilir, onun təkcə özünün yox, övladının da bədbəxtliyinə bais olur. Qrande ata qanı qanından, canı canından olan gənc qohumuna belə qəndi sayla verir, artıq tikəni onun qabağından götürür, soyuq payız günlərində oduna qənaət olunsun deyə buxarının qalanmasına icazə vermir, külfəti bir yana, heç özü də qarın dolusu çörək yemir, Yevgeniyanın öz pullarını əmisi oğluna verdiyini eşidəndə hikkəsindən çatlamaq dərəcəsinə çatır, cürbəcür ticari hiylələr, maxinasiyalarla vardövlətini qat-qat artırır, fəqət həmin sərvəti, indiki dillə desək, insan kapitalına döndərə bilmir. Azğın ehtiras, tamah, hərislik pulun-qızılın məqsəddən vasitəyə çevrilməsinə imkan vermir, bu səbəbdən vardövlət xoşbəxtlik yox, bədbəxtlik gətirir.

Atadan qalma bütün sərvətini, cer-cehizini öz canı qarışıq sözsüz-sovsuz ərinə təhvil vermiş, həftədə-ayda ondan yalnız dilənçi payı alsa da, narazılığını bircə yol dilə gətirməmiş arvadının üzünə ölüm sarısı çökəndə Qrande ata bir balaca xərc çəkib onu müalicə elətmək əvəzinə arsız-arsız irişib sarı (yəni qızılı) rəngdən xoşlandığını söyləyir, onun ölümündənsə yalnız buna görə narahat olur ki, qızı atasına qarşı mal-mülk iddiasına düşə bilər. Gözünün ağı-qarası tək övladını al dillə yola gətirib halalca haqqından imtina elətməyə razı salır.

Naneta yaxın qohumunun gəlişi münasibətiylə ağasına qəssabdan ət alıb bulyon hazırlamaq təklifini verəndə qoca simic qulluqçuya təpinir:

"- Qətiyyən ehtiyac yoxdur, sən bulyonu quş ətindən hazırlayarsan. Fermerlərə tapşırmışam, bizə bir neçə qarğa vurub göndərəcəklər. Qarğa bulyonundan yaxşı dünyada bulyon tapılmaz.

- Ağa, axı deyirlər qarğa leş, meyit yeyir?

- Səfeh Naneta! Qarğa da bütün canlılar kimi nə tapsa, onunla qidalanır. Məgər biz özümüz də ölənlərimizin ətini yemirikmi? Bəs onda miras nədir?.."

Yaxşı, əgər milyonçunun övladı qarğa ətiylə bəslənəcəksə, o milyonlar kimdən, nədən ötrüdür? Şübhəsiz, iblisin məntiqi olmur, şeytan sağlam məntiqə uymur, odur ki, bu sualı səsləndirəndə taxt-tac uğrunda doğmaca övladlarını dara çəkdirən kralları, sultanları yada salmaya bilmirsən. Belə çıxır ki, Qrande ata nə qədər usta, hiyləgər kommersant olsa da, o öz sərvətini yox, sərvəti onu idarə eləyir. Nəticədə kor instinkt onu gülünc, yazıq, yesir günə salır, hamıdan bic, ağıllı olduğunu düşünən Qrande hamıdan axmaq, hamıdan səfeh çıxır; əks təqdirdə boyunu sevdiyi, üstündə əsdiyi qızını özünə ömürlük bağlayıb bu dünyada öz kökünü qurutmazdı, öz barını çürütməzdi.

Zavallı Yevgeniya qoca Qrandenin ölümündən sonra belə atasının əsarətindən çıxa bilmir. Atası onu özünün dişi klonuna çevirib, qızının iradəsini büsbütün mənimsəyib. Ölüm ayağında deyir ki, Yevgeniyanın fəaliyyətini o dünyadan da izləyəcək (hərçənd Balzak yazır ki, xəsislər əbədi həyata inanmırlar, hər şeyi bu dünyadaykən, elə indi, bu dəqiqə qamarlamağa çalışırlar, onlar üçün indiki zamandan qıraq bir zaman yoxdur), gecə-gündüz qızını nəzarətdə saxlayacaq, əgər atasının cızdığı yoldan çıxarsa, əli onun yaxasında olacaq. Bu, nəinki insani, heç heyvani bağlılıq da deyil, çünki heyvanlar, quşlar, böcəklər də vaxtı çatanda balasını özündən ayırıb sərbəst həyata buraxır. Yalnız insan övladını çox istəmək adıyla əsarətdə saxlayır, onun arzularının ağzına daş tıxayıb balasını fəlakətə düçar eləyir. Yalnız insan başqalarını özünə qurban verməkdən şeytani bir zövq alır, çünki iblisin yer üzündəki baş qərargahı bədnam insan vücududur.

***

Sarı dəmirin parıltısını övladının xoşbəxtlikdən par-par yanan gözlərinin işığından üstün tutan bir məxluq - istər yetmiş yeddi dəfə ata, doxsan doqquz dəfə də ana olsun - bu dünyada hansı hörmətə layiqdir? Romanın başlanğıcından sonuna doğru irəlilədikcə Qrande atanın surəti Yevgeniyadan ötrü yavaş-yavaş atalıqdan çıxıb bədheybət, qaramat, qorxunc ibtidai tanrı surətinə, amansız, fəndgir, qəddar Zevs obrazına çevrilir. Ata-bala məhrəmliyi oxucunun gözü qarşısında allah-bəndə asılılığına dönür, zaman keçdikcə Yevgeniya atasından qorxmağa, ona taleyinin şəriksiz yiyəsi kimi baxmağa, onun qarşısında özünü suçlu sanmağa, fikirlərini ondan gizləməyə başlayır. Beləcə, qızın canında yenicə pardaqlanan həyat tumurcuqları bürüşüb-qırışıb soluxur, bar vermək, meyvə yetirmək mərhələsinə çatmır.

Nə qədər ki Qrande ata həyatdaydı, hələ onunla mübarizəyə girişmək, sevginin gücünə onun əsarətindən qurtulmaq olardı; ancaq elə ki bu dünyanın nemətlərini özünə haram bilən, malını canına yox, canını malına qurban verən, asketik ömür sürən xəsis qoca dünyasını dəyişdi, onunla mübarizənin də bir mənası qalmadı. Bundan sonra atası Yevgeniyadan ötrü hər şeyi görən, bilən, eşidən, amma bilmərrə dinməyən Allahı əvəz eləməyə başladı. Yevgeniya monastıra daşınıb xristian tanrısının xidmətçisi olmağa can atırdı, iş elə gətirdi ki, atasından qalma qaramat evdə - Qrande atanın xaraba məbədində atasına ibadətə başlayıb atasının rahibəsi oldu.

Bundan sonra atası onun hər addımını izləyəcək, yuxularında ona əmrlər, buyruqlar göndərəcək. Yevgeniya hər əməlində atasına genəşib, hər gün onun hüzuruna hesabatla çıxacaq. Atasından qalma üzüm tənəkləri salxım-salxım daşıb töküləcək, bağlarında ağacların budaqları yerə dəyəcək, bostanları bərəkət püskürəcək...

Bircə özü bar verməyəcək. Qrande atanın nəslini heç kim kəsə bilməzdi, əgər bu işə şəxsən özü qol qoymasaydı. Kişi özünü dünyada hamıdan ağıllı, hamıdan çox bilən sayırdı, axırda məlum oldu ki, karkor ehtirasların, qanmaz instinktlərin çapıb yorub çərlətdiyi bir ələngə cıdır atının bu dünyada bildiyi bir şey yoxmuş. Çox yaxşı deyiblər ki, adamın özünə elədiyi pisliyi, el yığılsa, onun başına gətirə bilməz.



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Hər şəhər bir tarixdir...

## Ən çox əhali hansı şəhərdə yerləşir?

Şəhərlər sadəcə daş-divar, küçə və işıqlardan ibarət deyil. Onlar insanın yaddaşı, mədəniyyətin güzgüsü və gələcəyin xəritəsidir. Hər küçə bir tarixdən danışır, hər bina bir dövrün nəfəsini daşıyır.

Hazırda planetin bütün sakinlərinin 55 faizi şəhərlərdə yaşayır. Şəhərlər intellektual fəaliyyət, ticarət, mədəniyyət, elm, sosial inkişaf və digər sahələrin mərkəzləridir. Dünyada ümumi daxili məhsulun 80 faizindən çoxu şəhərlərin payına düşür.

## 2050-ci ilədək...

Birləşmiş Millətlər Təşkilatından (BMT) bildirilib ki, sürətli urbanizasiya ətraflı düşünülməlidir, yalnız bu halda əhalinin məşğulluğunun və rifahının yaxşılaşdırılmasına nail olmaq mümkündür. Təşkilatın məlumatına görə, 2050-ci ilədək dünya əhalisinin 75 faizi şəhərliyə çevriləcək. Şəhər sakinlərinin sayının sürətli artımı, həmçinin sənayeləşdirilmə sahəsində yeni imkanların açılmasını vəd edir. Lakin bununla yanaşı, bu şəhərlərin əhalisinin həddən artıq olması, qeyri-bərabərliyin artması və ətraf mühitin çirklənməsi ilə nəticələnəcək.

İqlim dəyişmələrinə qarşı əsas mübarizə məhz şəhərlərdə aparılır. Şəhərlərin planlaşdırılması və inkişafı üzrə çoxlu velosiped yolları və piyada zonaları, yaşıllıqların nəzərdə tutulduğu yeni strategiyaya keçid parnik qazları emissiyasını kəskin şəkildə azaltmağa imkan yaradacaq. Gələcəyin “yaşıl” şəhərlərində işıqlandırma, isitmə və soyutma qazıntı şəklində çıxarılan yanacaq hesabına deyil, bərpaolunan enerji mənbələri hesabına təmin ediləcək.



## Ən az şəhər sakinləri Afrika və Asiyadadır

BMT-nin bu yaxınlardakı məruzələrinin birində deyilir ki, hazırda ən çox şəhər Şimali Amerikada yerləşir. Orada şəhər sakinləri əhalinin 82 faizini təşkil edir. Ən az şəhər sakinləri hələ ki, Afrika və Asiyadadır. Lakin artıq 2030-cu ilədək Afrika əhalisinin 47 faizi və Asiya əhalisinin 56 faizi şəhərlərdə yaşayacaq. Avropada isə bu müddətdə şəhər sakinlərinin sayı 77 faiz təşkil edəcək.

## Əhalinin ən sıx yerləşdiyi şəhər...

Bu gün dünyada əhalinin ən sıx yerləşdiyi şəhər aqlomerasiyası 37,2 milyon nəfərlə Tokio hesab edilir. Sonrakı yerləri Dehli (22,7 milyon), Mexiko və Nyu-York (hər ikisi 20,4 milyon), Şanxay (20,2 milyon) və San-Paulu (19,9 milyon) tutur.

Qeyd edək ki, oktyabrın 31-i Dünya Şəhərlər Günüdür. Bu gün 2014-cü ildən başlayaraq qeyd olunur. Əlamətdar gün dünya urbanizasiyası problemlərinə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədi daşıyır.

*Yeganə BAYRAMOVA*

# “Müqəddəs axşam”

## Qaranlıqla dostluğun bayramı - “Hallouin”...

Hər il oktyabrın son günündə dünya bir az fərqli “nəfəs alır”. Küçələrdə qəribə geyimlərdə uşaqlar, evlərin qapılarında balqabaqlardan oyulmuş “üzlər”, havada isə həyəcan və əyləncənin qarışığı hiss olunur. Bu ab-hava “Hallouin” bayramına aiddir. Bəziləri onu “qərb dəbi” adlandırır, bəziləri isə sadəcə əyləncə kimi görür.

Amma “Hallouin” daha çox insanların qorxularına gülümsəməsi, qaranlıqla dostlaşması, yaradıcılığın sərhədsizliyini hiss etməsi kimi tərif edirlər. Qeyd edilir ki, balqabağı oyub ondan “üz” hazırlamaq, ya da özünü sevdiyin film qəhrəmanına çevirmək sadəcə əyləncə deyil, həm də azadlıq hissidir.

Dünyanın müxtəlif ölkələrində xüsusi şəkildə qeyd edilən bu bayram ingilis dilində “Halloween”, dilimizdə isə “Hellouin - “balqabaqlar bayramı” adlanır. “Halloween” sözü “All Hallows Eve” sözündən gəlir və mənası “müqəddəs axşam” deməkdir.

Xristian aləmində müqəddəslər bayramlardan sayılan “Hallouin” ilk dəfə İrlandiya və Şotlandiyada qeyd olunsa da, sonradan bir çox Qərb ölkələrində sürətlə yayılmağa başladı. Elə ilk dəfə “Hallouin” kostyumu da məhz 1985-ci ildə Şotlandiyada hazırlanıb. “Hallouin”in özəlliklərindən biri bu bayramda xüsusi kostyumların geyilməsi və qorxulu maskaların taxılmasıdır. Qeyd edək ki, bayramın əsas atributu “Cek fənəri”dir - içərisi boşaldılmış, göz, burun və ağız qoyulmuş balqabaqdan hazırlanır və balqabağın içinə şam qoyulur. İnanca görə, bütün bunlar şər qüvvələrin dəf edilməsində böyük rol oynayır. Aparılan araşdırmalara görə, ABŞ-da bu bayramı qeyd edənlərin yarıdan çoxu “Hallouin” paltarına 38 dollardan artıq pul xərcləməyi lazım bilmir.

## “Hallouin”in tarixi...

Uşaqdan-böyüyə çoxları tərəfindən sevilən bu bayramın sərhədlərinin “genişlənməsinin” də çox maraqlı tarixi var. Hər il oktyabrın 31-də qeyd olunan “Hallouin” bayramının yaranması qədim kelt bayramı olan “Samayn”la əlaqəlidir. “Samayn” bütpərəstlərin bayramı idi. 2 min il əvvəl, əsasən, indiki İrlandiya, Böyük Britaniya və Fransanın şimalında yaşayan keltlər yeni illərini noyabrın 1-də qeyd edirdilər. Bu gün yazın sonu, qışın başlanğıcı olaraq görülürdü. Qışda insanların daha çox ölməsi ilə əlaqədar bu fəsli ölüm fəsli hesab edirdilər. Keltlər oktyabrın 31-nə keçən gecədə yaşayanlar və ölülər arasındakı qapının açıldığına və ölülərin ruhlarının yerə qayıtdığına inanırdılar. Bunun sayəsində də ölülərlə əlaqə saxlanıla bilinirdi. “Hallouin” bayramında olan “haunted” çağırışlarının da səbəbi məhz budur. Onlar evini ziyarətə gələn ruhlarla yanaşı, ziyanverici ruhların da gələ biləcəyindən narahat olaraq onları qorxudub qaçırmaq üçün qorxulu balqabaqlar hazırlayır və ya iyrənc makiyajlar edirdilər. Keltlər o biri dünyadan gələn bu ruhların həm də kahinlərin gələcək haqqında proqnoz verməsini asanlaşdırdığına inanırdılar. Bayram zamanı insanlar nəhəng tonqallar ətrafında toplaşaraq məhsulları və ya heyvanları yandırıb tanrılarına qurban verirdilər. Onlar bayram zamanı müqəddəslərə hörmət əlaməti olaraq heyvan başlarından və ya dərilərindən düzəldilmiş kostyumlar geyinirdilər.

Daha sonra Kelt torpaqları 400 il Roma İmperiyasının işğalı altında qaldı. Bu müddətdə romalıların 2 bayramı “Samayn” bayramı ilə birləşdirildi və bununla da bayram adətlərinə bir sıra əlavə və dəyişikliklər olundu. Məsələn, qadınların həyat yoldaşlarının kim olacağını görmək üçün alma dilimləri ilə fala baxması romalıların bayramlarından keçmiş bir adətdir. Bu bayram bütpərəstlərin bayramı olduğu üçün xristianlar onlara təsir edərək ənənələrini əritməyə çalışırdılar, hazırkı “Hallouin” bayramında xristianlıq çalarlarının olmasının səbəbi də budur. Məhz xristianların təsiri sayəsində bu bayram daha da məşhurlaşaraq bütün dünyada xüsusi bir gün olaraq qeyd edilməyə başladı.

## Satılan konfetlərin dörddə biri...

“Hallouin” kökünü “Samayn” bayramından götürsə də, tarixən dəyişikliklərə məruz qaldı və təkamül nəticəsində “müasirləşdi”. Əvvəlki dövrlərin mistik ritualları daha yüngül əyləncə və oyunlara çevrildi. Məsələn, kostyumlar müqəddəslərə hörmət kimi başlasa da, hazırda yalnız əyləncə xarakterlidir. Bayram zamanı uşaqlar qorxulu kostyumlar geyinərək qapı-qapı gəzib şirniyyat və ya konfet yığırlar, ev sahibi heç nə verməyəndə isə qorxulu geyimləri ilə onlara hədə-qorxu gəlirlər. Statistikaya əsasən, ABŞ-da hər il satılan bütün konfetlərin dörddə biri “Hallouin” üçün alınır.






## Bayrama hazırlıq...

Balqabaq Hellouinin əsas atributlarından biri hesab olunur. İnsanlar məhz bu gün balqabaqları oyub, içərisinə şam qoyurlar. Bundan başqa, bayrama özəl balqabaqlar hazırlanıb bəzədilir;

Bayram günündə geyiniləcək xüsusi kostyumlar seçilir;

Uşaqlara vermək üçün çoxlu konfetlər, şirniyyatlar alınır;

Evlərin önü, mağazaların vitrinləri “Halloween” konseptində bəzədilir;

Bu günü maraqlı şəkildə qeyd etmək üçün tədbirlər hazırlanır.

Bayramın simvolu kimi qara qüvvələrin rəmzi olan hörümçək toru, küpəgirən qarı, qara pişik, skelet şəkilləri çəkilir, marketlərdə adıçəkilən bayrama aid oyuncaqlar satılır, şirniyyatlar bu rəmzlərin formasında hazırlanır və s.

## Azərbaycanda “Hallouin”

Ölkəmizdə bu bayrama münasibət fərqlidir. Bir neçə il əvvələ kimi “Hallouin”in nə demək olduğunu, nə üçün keçirildiyini bir çoxlarımız heç anlamırdıq da. Lakin 6-7 ildir ki, “Hallouin” bayramı azərbaycanlıların da həyatına daxil olub.

Azərbaycanda çoxluğun bayramla bağlı ənənələrdən xəbəri olmasa da, qeyd edənlər də tapılır. Onlar əyləncəli xarakterinə görə “Hallouin”i sevirlər. Ölkəmizdə bütün mağazalarda olmasa da, bəzi mağazaların vitrinlərində “Hallouin” konseptini də görə bilərik. Bununla bağlı müxtəlif tədbirlər keçirilir və iştirak edənlərin sayı heç də az deyil.

*Yeganə BAYRAMOVA*

# “Nar”ın “Çoox Şanslı” lotereyasının ilk avtomobil qalibi sükan arxasında!




Sərfəli mobil operator “Nar” “Çoox Şanslı” lotereyası çərçivəsində ilk avtomobil sahibi - Zaur Quliyevi təbrik edib və ona “Haval H6 Ultra” avtomobilini təhvil verib. Eyni zamanda, son tirajda daha üç “Nar” abunəçisi - Ülkər İbrahimova, Mövsüm Məmmədov və Xədicə Əliyeva “Xiaomi Redmi Note 14 Pro” smartfonunu udub.

Xatırladaq ki, “Çoox Şanslı” lotereyası ilin sonuna qədər davam edəcək. Bu müddət ərzində “Nar” abunəçiləri hər gün “Xiaomi Redmi Note 14 Pro”, hər həftə “Haval H6 Ultra” və finalda “Li L9 Ultra” avtomobili kimi möhtəşəm hədiyyələr qazanmaq şansı əldə edirlər. Qaliblər tam təsadüfi seçimlə müəyyən olunur və canlı yayımda elan edilir.

Qeyd edək ki, “Çoox Şanslı” lotereyasında iştirak etmək üçün “Nar” abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslı paketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür. Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır.

Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını “Nar+” tətbiqi və nar.az veb-səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.

Daha ətraflı məlumat üçün: lotereya.nar.az/


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4994
Sifariş: 2219
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova